Azərbaycan Respublikasının
İqtisadiyyat Nazirliyi yanında
Antiinhisar və İstehlak Bazarına
Nəzarət Dövlət Xidməti

# FƏALİYYƏT HESABATI 2022



# MÜNDƏRİCAT


**1. DÖVLƏT XİDMƏTİ HAQQINDA**

*1.1 Tarixi*
*1.2 Strukturu*
*1.3 Rəhbərlik*
*1.4 Missiya və strateji baxış*
*1.5 Tabeliyində olan qurumlar*
*1.6 Regional bölmələr*

**2. FƏALİYYƏT İSTİQAMƏTLƏRİ**

*2.1 Antiinhisar nəzarəti*
*2.2 Haqsız rəqabət və reklam qanunvericiliyinə nəzarət*
*2.3 Təbii inhisarlara dövlət nəzarəti*
*2.4 Keyfiyyət infrastrukturu*
*2.5 Dövlət satınalmaları*
*2.6 İstehlakçı hüquqlarının müdafiəsi və istehlak bazarına nəzarət*

**3. DÖVLƏT, ÖZƏL VƏ BEYNƏLXALQ TƏŞKİLATLARLA ƏMƏKDAŞLIQ**

*3.1 Tədbirlər və görüşlər*
*3.2 Beynəlxalq təşkilatlarla əməkdaşlıq*

**4. İNSTİTUSİONAL İSLAHATLAR VƏ DAXİLİ TƏKMİLLƏŞDİRMƏ**

*4.1 İnsan kapitalının inkişafı*
*4.2 Rəqəmsallaşma*



## Əziz oxucular!

Rəqabətə davamlı iqtisadiyyatın formalaşdırılması, keyfiyyət infrastrukturunun yaradılması, dövlət satınalmalarında şəffaflığın təmin olunması son nəticədə sahibkarlıq subyektlərinin mənafeyinin qorunması və istehlakçı hüquqlarının müdafiəsinə xidmət edir. İqtisadiyyat Nazirliyi yanında Antiinhisar və İstehlak Bazarına Nəzarət Dövlət Xidməti bu istiqamətlər üzrə fəaliyyətin təşkilində ötən ili əhəmiyyətli göstəricilərlə başa vurub.

Biznes sektorunun məhsuldarlığını və beynəlxalq rəqabət qabiliyyətini artıran, dinamik bazarları və iqtisadi artımı təşviq edən rəqabət siyasətimizin icrası məqsədilə Dövlət Xidməti tərəfindən ötən il ərzində müvafiq sahədə qanunvericiliyin təkmilləşdirilməsinə böyük diqqət ayrılıb. Bu məqsədlə mövcud qanunvericilik aktları əsasında, beynəlxalq təcrübə, o cümlədən Avropa və MDB dövlətlərinin təcrübələri öyrənilməklə yeni Rəqabət Məcəlləsinin layihəsi hazırlanıb və aidiyyəti üzrə təqdim edilib. Bu Məcəllə rəqabət mühitində və antiinhisar siyasətində rəqabəti və azad sahibkarlığı təşviq etməklə iqtisadiyyatın inkişafını, istehlakçıların rifahını, məhsul və xidmətlərin keyfiyyətinin yüksəlməsini təmin edəcək.

Rəqabət qanunvericiliyinin təkmilləşdirilməsi ilə yanaşı, keyfiyyət əsaslı və rəqabətli sahibkarlığın inkişafına dəstək məqsədilə Dövlət Xidməti tərəfindən təqdim edilən xidmətlərin rəqəmsallaşdırılması üzrə fəaliyyətlər icra edilib, o cümlədən Elektron Rəqabət İnformasiya Sistemi (ERİS) və standartlaşdırma, metrologiya və akkreditasiya sahələrində nəzarətin təşkilini ehtiva edən Keyfiyyət Portalının yaradılması istiqamətində işlərə başlanılıb.

Dövlət Xidməti tərəfindən həyata keçirilən dövlət satınalmalarına nəzarət funksiyası çərçivəsində 2022-ci ildə mühüm tədbirlər görülüb. Bu məqsədlə Dövlət Xidməti tərəfindən “Dövlət satınalmaları haqqında” yeni Qanun layihəsi hazırlanaraq hökumətə təqdim olunub. Dövlət satınalmaları sahəsində həyata keçirilən islahatların - nəzarət tədbirlərinin gücləndirilməsi, dövlət satınalmalarının vahid internet portalının təkmilləşdirilməsi, elektronlaşmanın artması, satınalan təşkilatların və sahibkarların maarifləndirilməsinin nəticəsi olaraq dövlət vəsaiti hesabına həyata keçirilən müsabiqələrdə geniş rəqabət mühiti yaranıb. Belə ki, 2022-ci ildə ümumi satınalmaların məbləği 6,8 milyard manata yaxın olub ki, bunun da 95%-i mikro, kiçik və orta sahibkarlıq subyektlərinin payına düşüb. Bundan əlavə, ötən il kotirovka sorğusu metodu ilə keçirilən satınalmaların tamamilə elektronlaşdırılmasına nail olunub.

Keyfiyyət infrastrukturunun inkişafı baxımından 2022-ci ildə görülən işlər xüsusi əhəmiyyətə malikdir. Belə ki, ötən il “Milli standartlaşdırma sisteminin beynəlxalq tələblərə uyğunlaşdırılmasına dair 2023–2025-ci illər üçün Dövlət Proqramı” layihəsi hazırlanıb. Dövlət Proqramının qəbulu və növbəti 3 il ərzində icrasının əsas strateji hədəfləri ölkədə texniki tənzimləmə sisteminin yaradılması, mallara, onlarla əlaqəli proseslərə və istehsal metodlarına dair məcburi tələbləri müəyyən edən texniki reqlamentlərin qəbulu və tətbiqi, sahə üzrə risk əsaslı dövlət nəzarəti sisteminin formalaşdırılması, ölkənin standartlaşdırma sisteminin dünya standartlaşdırma sisteminə uyğunlaşdırılması, standartlaşdırmanın məhsulların rəqabətqabiliyyətliliyinin artırılmasına töhfə verən fəaliyyətə çevrilməsi, müasir laboratoriyalar şəbəkəsinin qurulması, texniki tənzimləmə və standartlaşdırma sahəsində elektronlaşmanın təmin edilməsinə və s. xidmət edəcəkdir.

Dövlət Xidmətinin əsas fəaliyyət istiqamətlərindən biri olan istehlakçı hüquqlarının müdafiəsi və istehlak bazarına nəzarət sahəsində həyata keçirilən tədbirlər istehlakçıların keyfiyyətli və təhlükəsiz mallar, işlər və xidmətlərlə təmin olunmasına, mal satılarkən, iş görülərkən, xidmət göstərilərkən onların hüquqlarının pozulmasının qarşısının alınmasına, pozulmuş hüquqların bərpa edilməsinə yönəlmişdir. Ötən il Dövlət Xidmətinə daxil olmuş müraciətlərdən 2260-ı təmin olunub. Təmin olunan müraciətlər üzrə sahibkarlıq subyektləri tərəfindən 318 358 manat vəsait istehlakçılara geri qaytarılıb, 19 837 manat məbləğində dəymiş ziyan ödənilib.

İqtisadiyyat Nazirliyi yanında Antiinhisar və İstehlak Bazarına Nəzarət Dövlət Xidmətinin 2022-ci il üzrə fəaliyyəti barədə daha geniş məlumatı bu hesabatda əldə edə biləcəksiniz. Qurumun fəaliyyət nəticələrini özündə əks etdirən hesabat jurnalında Dövlət Xidmətinə aid bütün məlumatlar dolğun şəkildə əks olunub.

*Hörmətlə,*

**Məmməd Abbasbəyli**

İqtisadiyyat Nazirliyi yanında
Antiinhisar və İstehlak Bazarına Nəzarət
Dövlət Xidmətinin rəisi

# 01 DÖVLƏT XİDMƏTİ HAQQINDA



İqtisadiyyat Nazirliyi yanında Antiinhisar və İstehlak Bazarına Nəzarət Dövlət Xidməti Azərbaycan Respublikası Prezidentinin 1992-ci il 23 iyun tarixli 3 nömrəli Fərmanı ilə Antiinhisar Siyasəti və Sahibkarlığa Kömək Komitəsi kimi yaradılıb. Həmin ildə bazar iqtisadiyyatına keçidlə bağlı mühüm əhəmiyyəti olan "Sahibkarlıq fəaliyyəti haqqında" Azərbaycan Respublikasının Qanunu qəbul edilib. 2001-ci ildə Ümummilli lider Heydər Əliyevin fərmanı ilə Antiinhisar Siyasəti və Sahibkarlığa Kömək Komitəsi hüquqi şəxs statusunda İqtisadi İnkişaf Nazirliyinin tərkibinə daxil edilərək Antiinhisar Siyasəti Departamenti kimi fəaliyyət göstərib. 2001-2006-cı illər ərzində Azərbaycan Respublikası Prezidentinin fərman və sərəncamları, Nazirlər Kabinetinin qərar və normativ sənədləri ilə Departamentin vəzifə və səlahiyyətləri genişləndirilib.

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin rəhbərliyi ilə ölkəmizdə antiinhisar siyasəti, haqsız rəqabətə qarşı mübarizə, istehlakçıların hüquqlarının müdafiəsi və istehlak bazarına nəzarət sistemi yeni inkişaf mərhələsinə qədəm qoyub. 2006-cı il dekabrın 28-də İqtisadi İnkişaf Nazirliyi yanında icra hakimiyyəti orqanı statusunda Antiinhisar Dövlət Xidməti yaradılıb və istehlak bazarına nəzarət funksiyaları da Xidmətin səlahiyyətlərinə aid edilib. Prezident İlham Əliyevin 2009-cu ildə imzaladığı Fərmanla Antiinhisar Siyasəti və İstehlakçıların Hüquqlarının Müdafiəsi Dövlət Xidməti yaradılıb. Daha sonra antiinhisar fəaliyyəti, haqsız rəqabət, təbii inhisarlar, reklam, istehlak bazarına nəzarət ilə bağlı səlahiyyətlər quruma həvalə edilib. Azərbaycan Respublikası Prezidentinin 2016-cı il 15 yanvar tarixli Fərmanı ilə 1997-ci il 16 may tarixində yaradılan və Azərbaycan Respublikasında dövlət vəsaitləri hesabına malların (işlərin və xidmətlərin) satın alınması sahəsində dövlət siyasətini həyata keçirən keçmiş mərkəzi icra hakimiyyəti orqanı olan Azərbaycan Respublikasının Satınalmalar üzrə Dövlət Agentliyi ləğv edilərək vəzifə və funksiyaları, habelə istifadəsində olan dövlət əmlakı Azərbaycan Respublikasının İqtisadiyyat Nazirliyi yanında Antiinhisar Siyasəti və İstehlakçıların Hüquqlarının Müdafiəsi Dövlət Xidmətinə verilib.

Prezidentin 2018-ci il 20 aprel tarixli 5 nömrəli Sərəncamı ilə İqtisadiyyat Nazirliyi yanında Antiinhisar Siyasəti və İstehlakçıların Hüquqlarının Müdafiəsi Dövlət Xidməti əsasında mərkəzi icra hakimiyyəti orqanı olan Azərbaycan Respublikasının Antiinhisar və İstehlak Bazarına Nəzarət Dövlət Agentliyi yaradılıb. Həmin Sərəncamla ləğv edilmiş Standartlaşdırma, Metrologiya və Patent üzrə Dövlət Komitəsinin texniki tənzimləmə, standartlaşdırma, metrologiya, uyğunluğun qiymətləndirilməsi, akkreditasiya və keyfiyyətin idarə edilməsi sahəsində səlahiyyətləri Dövlət Agentliyinə verilib.

2019-cu il 23 oktyabr tarixli 845 nömrəli Fərmanla isə Agentlik yenidən Dövlət Xidməti statusunda İqtisadiyyat Nazirliyinin strukturuna daxil edilib. 26 iyun 2021-ci il tarixli 1382 nömrəli Fərmanla İqtisadiyyat Nazirliyinin tabeliyindəki “İstehlak Mallarının Ekspertizası Mərkəzi” Məhdud Məsuliyyətli Cəmiyyəti, habelə “Azərbaycan Metrologiya İnstitutu”, “Azərbaycan Standartlaşdırma İnstitutu” və “Azərbaycan Akkreditasiya Mərkəzi” publik hüquqi şəxslər Nazirlik yanında Antiinhisar və İstehlak Bazarına Nəzarət Dövlət Xidmətinin tabeliyinə verilib.

# DÖVLƏT XİDMƏTİNİN **STRUKTURU**



# RƏHBƏRLİK



**MƏMMƏD ABBASBƏYLİ**
*Rəis*



**ELNUR BAĞIROV**
*Rəis müavini*



**CƏFƏR BABAYEV**
*Rəis müavini*



**İLQAR HƏSƏNOV**
*Rəis müavini*

# MİSSİYA VƏ STRATEJİ BAXIŞ

## MİSSİYAMIZ

İqtisadiyyat Nazirliyi yanında Antiinhisar və İstehlak Bazarına Nəzarət Dövlət Xidmətinin əsas missiyası müəyyən olunmuş fəaliyyət istiqamətləri üzrə ədalətlilik, şəffaflıq, qərəzsizlik, etibarlılıq və əlçatanlıq kimi müəyyən olunmuş dəyərlər əsasında bazarlarda azad rəqabəti təmin etmək və inkişafının dəstəklənməsi vasitəsilə sahibkarların və istehlakçıların maraqlarını qorumaqdır.

## STRATEJİ BAXIŞIMIZ

Milli iqtisadiyyatda sağlam rəqabətin təmin edilməsi əsasında onun rəqabətqabiliyyətliliyinin yüksəldilməsi və dayanıqlı inkişafının dəstəklənməsidir.



# "AZƏRBAYCAN STANDARTLAŞDIRMA İNSTİTUTU"
## PUBLİK HÜQUQİ ŞƏXS

"Azərbaycan Standartlaşdırma İnstitutu" PHŞ (AZSTAND) Azərbaycan Respublikası Prezidentinin 2017-ci il 10 fevral tarixli 1234 nömrəli Fərmanına əsasən milli standartlaşdırma qurumu kimi təsis edilib. Standartların hazırlanması, tətbiqi və bu sahədə beynəlxalq təşkilatlarda təmsilçilik, habelə standartların tətbiqi ilə əlaqəli xidmətlər İnstituta həvalə edilib.

İnstitutun əsas fəaliyyət istiqamətlərinə milli standartların hazırlanması, qəbulu və ləğv edilməsi, Standartlaşdırma üzrə Normativ Sənədlərin Dövlət Fondunun idarə edilməsi, texniki tənzimləmə sahəsi ilə əlaqəli işlər, standartlaşdırma üzrə normativ sənədlərin reyestrinin aparılması, standartlaşdırma üzrə Texniki Komitələrin fəaliyyətinin əlaqələndirilməsi, məhsulların, proseslərin və ya xidmətlərin sertifikatlaşdırılması, onların standartlarda və digər normativ sənədlərdə göstərilən tələblərə uyğunluğuna zəmanət verən sertifikatlaşdırma fəaliyyətinin (laborator sınaq xidmətlərinin) həyata keçirilməsi daxildir. Eyni zamanda İnstitut tərəfindən beynəlxalq standartlar əsasında təlimlər və idarəetmə sistemlərinin sertifikatlaşdırılması fəaliyyəti göstərilir.




Azərbaycan Standartlaşdırma İnstitutu 2017-ci ildən Beynəlxalq Standartlaşdırma Təşkilatının (ISO) və Standartlaşdırma, Metrologiya və Sertifikatlaşdırma üzrə Dövlətlərarası Şuranın (МГС) tamhüquqlu üzvüdür. Bununla yanaşı, AZSTAND Beynəlxalq Elektrotexniki Komissiyanın (İEC) Müxbir ölkələr proqramında (Affiliate Country Programme) iştirak edir, Avropa Standartlaşdırma Təşkilatında (CEN) Tərəfdaş standartlaşdırma orqanı (CSB) statusunda təmsil olunur.



Azərbaycan Standartlaşdırma İnstitutu fəaliyyət göstərdiyi müddət ərzində Türkiyə, Almaniya, Böyük Britaniya, Amerika Birləşmiş Ştatları, Litva, Serbiya, İsrail, Qazaxıstan, Rusiya və bir sıra digər ölkələrin milli standartlaşdırma qurumları, eləcə də standartlaşdırma, uyğunluğun qiymətləndirilməsi və akkreditasiya sahəsində fəaliyyət göstərən müvafiq beynəlxalq təşkilatlarla ikitərəfli əməkdaşlıq əlaqələrinin yaradılmasına nail olub.

# DÖVLƏT XİDMƏTİNİN TABELİYİNDƏ OLAN QURUMLAR



## “AZƏRBAYCAN METROLOGİYA İNSTİTUTU” PUBLİK HÜQUQİ ŞƏXS

Azərbaycan Metrologiya İnstitutu “Standartlaşdırma, metrologiya, akkreditasiya və patent hüququ obyektlərinin mühafizəsi sahələrində idarəetmənin təkmilləşdirilməsi ilə bağlı əlavə tədbirlər haqqında” Azərbaycan Respublikası Prezidentinin 10 fevral 2017-ci il tarixli 1234 nömrəli Fərmanına əsasən dövlət kəmiyyət vahidləri etalonlarının əldə olunmasını, qorunub saxlanılmasını və dövlət etalonlarından kəmiyyət vahidlərinin ötürülməsinin təmin edilməsi məqsədilə yaradılıb.



Hazırda İnstitutda aşağıdakı milli etalon laboratoriyaları fəaliyyət göstərir:

- Temperatur dövlət etalonları laboratoriyası
- Kütlə dövlət etalonları laboratoriyası
- Elektrik kəmiyyətləri dövlət etalonları laboratoriyası
- Vaxt və tezlik dövlət etalonları laboratoriyası
- Təzyiq dövlət etalonları laboratoriyası
- İonlaşdırıcı şüalanma dövlət etalonları laboratoriyası
- Sıxlıq dövlət etalonları laboratoriyası
- Özlülük dövlət etalonları laboratoriyası



Həmçinin İnstitutda aşağıda qeyd edilən ölçmə vasitələrinin yoxlanılması və kalibrlənməsi laboratoriyaları fəaliyyət göstərir:

- Təzyiq, sərf və həcm ölçmə vasitələrinin yoxlanılması və kalibrlənməsi laboratoriyası
- Elektrik və radiotexniki ölçmə vasitələrinin yoxlanılması və kalibrlənməsi laboratoriyası
- Kütlə, həndəsi və mexaniki ölçmə vasitələrinin yoxlanılması və kalibrlənməsi laboratoriyası
- Temperatur ölçmə vasitələrinin yoxlanılması və kalibrlənməsi laboratoriyası
- Fiziki-kimyəvi və optiki-fizika ölçmə vasitələrinin yoxlanılması və kalibrlənməsi laboratoriyası
- İonlaşdırıcı şüalanma və radioaktivlik ölçmə vasitələrinin yoxlanılması və kalibrlənməsi laboratoriyası

DÖVLƏT XİDMƏTİNİN

**TABELİYİNDƏ OLAN QURUMLAR**




# "AZƏRBAYCAN AKKREDİTASİYA MƏRKƏZİ" PUBLİK HÜQUQİ ŞƏXS

"Standartlaşdırma, metrologiya, akkreditasiya və patent hüququ obyektlərinin mühafizəsi sahələrində idarəetmənin təkmilləşdirilməsi ilə bağlı əlavə tədbirlər haqqında" Azərbaycan Respublikası Prezidentinin 2017-ci il 10 fevral tarixli 1234 nömrəli Fərmanı ilə akkreditasiya üzrə prinsip və qaydalara riayət edilməsini, uyğunluğun qiymətləndirilməsi (təsdiqi) qurumlarının akkreditasiyasını və bu sahədə beynəlxalq təşkilatlarda təmsilçiliyin həyata keçirilməsini təmin edən "Azərbaycan Akkreditasiya Mərkəzi" PHŞ (AzAK) yaradılıb. AzAK uyğunluğu qiymətləndirən qurumların akkreditasiyasını həyata keçirir. Akkreditasiya olunmuş uyğunluğu qiymətləndirən qurumlara sınaq laboratoriyaları, kalibrləmə laboratoriyaları, məhsulların, işlərin, xidmətlərin sertifikatlaşdırılması üzrə orqanlar, heyətin sertifikatlaşdırılması üzrə orqanlar, inspeksiya orqanları, idarəetmə sistemlərinin sertifikatlaşdırılması üzrə orqanlar və etalon material istehsalçıları daxildir.



AzAK-ın qarşısında duran əsas vəzifə milli akkreditasiya sisteminin beynəlxalq tələblərə uyğunlaşdırılması və uyğunluğun qiymətləndirilməsi nəticələrinin beynəlxalq tanınmasının təmin edilməsidir. Bu məqsədlə AzAK akkreditasiya sahəsində mövcud olan beynəlxalq və regional təşkilatlarla, digər ölkələrin akkreditasiya qurumları ilə sıx əməkdaşlıq edir. AzAK 2017-ci ildən Avropa Akkreditasiya Təşkilatının (EA), 2018-ci ildən etibarən isə Laboratoriyaların Akkreditasiyası üzrə Beynəlxalq Təşkilatın (ILAC) assosiativ üzvüdür.





# “İSTEHLAK MALLARININ EKSPERTİZASI MƏRKƏZİ” MƏHDUD MƏSULİYYƏTLİ CƏMİYYƏTİ

“İstehlak Mallarının Ekspertizası Mərkəzi” Məhdud Məsuliyyətli Cəmiyyəti 27 aprel 2007-ci ildə İstehlak Bazarına Nəzarət üzrə Dövlət Xidmətinin nəzdində “Yeyinti Məhsullarının Keyfiyyəti və Təhlükəsizliyi Bürosu” MMC kimi dövlət qeydiyyatına alınıb. 11 aprel 2008-ci il tarixində qurumun adı dəyişdirilərək İstehlak Bazarına Nəzarət üzrə Dövlət Xidmətinin nəzdində İstehlak Mallarının Ekspertizası Bürosu MMC adlandırılıb. 17 aprel 2012-ci il tarixində Cəmiyyətin adı yenidən dəyişdirilərək Azərbaycan Respublikası İqtisadiyyat Nazirliyinin tabeliyində “İstehlak Mallarının Ekspertizası Mərkəzi” MMC adlandırılıb. Azərbaycan Respublikası Prezidentinin 26 iyun 2021-ci il tarixli 1382 nömrəli Fərmanına əsasən “İstehlak Mallarının Ekspertizası Mərkəzi” Məhdud Məsuliyyətli Cəmiyyətinin Azərbaycan Respublikasının İqtisadiyyat Nazirliyi yanında Antiinhisar və İstehlak Bazarına Nəzarət Dövlət Xidmətinin tabeliyinə keçirilib.



“İstehlak Mallarının Ekspertizası Mərkəzi” MMC-nin əsas fəaliyyət istiqaməti malların mənşə ölkəsinin müəyyən edilməsi üzrə ekspertizaların həyata keçirilməsi və nəticələrini təsdiq edən sənədlərin verilməsindən ibarətdir. Azərbaycan Respublikasının gömrük ərazisindən malların ixracı zamanı gömrük rəsmiləşdirilməsi prosedurlarının həyata keçirilməsi üçün hüquqi və fiziki şəxslərin müraciəti əsasında İqtisadiyyat Nazirliyi yanında Antiinhisar və İstehlak Bazarına Nəzarət Dövlət Xidməti tərəfindən malın mənşə ölkəsini təsdiq edən “mənşə sertifikatı” tələb oluna bilər. Malın mənşə ölkəsinin müəyyən edilməsi üzrə ekspertizalar isə İqtisadiyyat Nazirliyi yanında Antiinhisar və İstehlak Bazarına Nəzarət Dövlət Xidmətinin tabeliyində “İstehlak Mallarının Ekspertizası Mərkəzi” MMC tərəfindən aparılır. Aparılan ekspertizaların nəticələri əsasında “Ekspertiza aktı” tərtib olunur.



# REGİONAL BÖLMƏLƏR

| Regional bölmə | Ünvanı | Əhatə etdiyi rayonlar |
|---|---|---|
| **Bakı şəhər şöbəsi** | *Bakı şəhəri, Səbail rayonu, Üzeyir Hacıbəyli küçəsi 84* | Bakı şəhəri |
| **2 saylı regional bölmə** | *Sumqayıt şəhəri, Sülh küçəsi 76* | Sumqayıt şəhəri, Abşeron, Xızı, Siyəzən rayonları |
| **3 saylı regional bölmə** | *Xaçmaz şəhəri, Bakı prospekti 45* | Quba, Qusar, Xaçmaz, Şabran rayonları |
| **4 saylı regional bölmə** | *Şamaxı şəhəri, Heydər Əliyev prospekti, 27* | Ağsu, Şamaxı, Qobustan rayonları |
| **5 saylı regional bölmə** | *Salyan şəhəri, B.Talıblı küçəsi 9B* | Şirvan şəhəri, Sabirabad, Saatlı, Hacıqabul, Neftçala, Salyan rayonları |
| **6 saylı regional bölmə** | *Cəlilabad şəhəri, Azərbaycan küçəsi 76A* | Biləsuvar, Cəlilabad, Masallı, Yardımlı, Lerik, Lənkəran, Astara rayonları |
| **7 saylı regional bölmə** | *Füzuli rayonu, Horadiz şəhəri, H.Əliyev prospekti (Muğam Mərkəzi)* | Azad olunmuş ərazilər |
| **8 saylı regional bölmə** | *İmişli şəhəri, 20 yanvar küçəsi 11* | Ağcabədi, Beyləqan, İmişli rayonları |
| **9 saylı regional bölmə** | *Kürdəmir şəhəri, Bakı prospekti 12* | Ağdaş, Ucar, Zərdab, Kürdəmir, Göyçay rayonları |
| **10 saylı regional bölmə** | *Qəbələ şəhəri, H. Aslanov küçəsi, 31* | Oğuz, Qəbələ, İsmayıllı rayonları |
| **11 saylı regional bölmə** | *Yevlax şəhəri, Bakı prospekti 5 (Aran İnkişaf Mərkəzi)* | Mingəçevir şəhəri, Yevlax, Tərtər, Bərdə rayonları |
| **12 saylı regional bölmə** | *Gəncə şəhəri, Ş.İ.Xətai prospekti 98* | Gəncə, Naftalan şəhərləri, Samux, Goranboy, Göygöl, Daşkəsən rayonları |
| **13 saylı regional bölmə** | *Şəki şəhəri, M.Ə.Rəsulzadə prospekti 156* | Şəki, Qax, Zaqatala, Balakən rayonları |
| **14 saylı regional bölmə** | *Tovuz rayonu, Düz Cırdaxan kəndi* | Qazax, Ağstafa, Tovuz, Şəmkir, Gədəbəy rayonları |




**Qeyd: 5, 8, 9, 10 və 14** saylı regional bölmələr yeni yaradılıb. Həmin regional bölmələrin növbəti ildən fəaliyyətə başlaması istiqamətində işlər görülür.



# ANTİİNHİSAR NƏZARƏTİ

> 42 BAZAR SUBYEKTİNƏ QARŞI
> **17 İŞ QALDIRILIB**

Antiinhisar sahəsində dövlət siyasətinin formalaşdırılmasında iştirak etmək və həmin siyasətin həyata keçirilməsini təmin etmək Dövlət Xidmətinin əsas fəaliyyət istiqamətlərindən biridir. 2022-ci ildə bu istiqamətdə səmərəli fəaliyyət həyata keçirilib. Belə ki, ötən il hökmran mövqedən sui-istifadə etməklə müvafiq bazarlarda rəqabətin məhdudlaşdırılmasına yol verilməsi ilə əlaqədar 94 müraciətə baxılıb. Antiinhisar qanunvericiliyinin tələblərinin pozulması ilə əlaqədar aparılan bazar araşdırması və daxil olmuş müraciətlərin təhlil edilməsi zamanı bir sıra bazar subyektləri tərəfindən antiinhisar qanunvericiliyinin tələblərinin pozulması əlamətləri müəyyən edilib və nəticədə 42 bazar subyektinə qarşı 17 iş qaldırılıb.

**QALDIRILMIŞ İŞLƏRİN BAZARLAR ÜZRƏ BÖLGÜSÜ**




## QALDIRILMIŞ İŞLƏR

- *Antiinflyasiya tədbirləri çərçivəsində düyü (“Sun Food” MMC, “Veysəloğlu” MMC, “Xudafərin-1” MMC, “Babək” firması, "Elsaan Group MMC, “Qida XXI” MMC, “Best-Tarım” MMC, “Tamashaee Foods” MMC, “OBA Market” MMC, “Araz Supermarket” MMC, “AL Market” MMC, “Bazarstore” MMC), qarabaşaq (“Sun Food” MMC, “Veysəloğlu” MMC, “Babək” firması, “Vuqma-qida məhsulları” MMC, “Abşeron Treyd” MMC, fiziki şəxs Kərimov İlqar Məmmədhəsən oğlu, “OBA Market” MMC, “Araz Supermarket” MMC, “AL Market” MMC və “Bazarstore” MMC) və çay məhsulları idxalçıları və topdansatıcılarına (“Sun Tea Çay Fabriki” MMC, “Sun Food” MMC, “Best-Tarım” QSC, “Veysəloğlu” MMC və “Qida XXI” MMC) qarşı 3 iş qaldırılıb.*

- *Xam duzun qiymətinin baha olması barədə daxil olmuş müraciətin araşdırılması nəticəsində duz istehsalı və satışı bazarında hökmran mövqedə olan təsərrüfat subyektərinə (“Azərbaycan Duz İstehsalat Birliyi” QSC və “Sun Food” MMC) qarşı 1 iş qaldırılıb.*

- *Telefon (smartfon) bazarının araşdırılması ilə əlaqədar tələb olunan sənəd və məlumatların təqdim edilməməsinə görə ən böyük telefon idxalı və satışı ilə məşğul olan təsərrüfat subyektlərinə ("ABC-Telecom" MMC, “İrşad Electronics” MMC, “İntegral” QSC, “Elcore Distribution AZ” MMC, “Soliton LTD” MMC, “BUL Electronics” MMC, “V Telecom” MMC və “İmperius” MMC) qarşı 8 iş qaldırılıb.*

- *Tələb olunan sənəd və məlumatların təqdim edilməməsinə görə ərzaq məhsullarının satışı ilə məşğul olan təsərrüfat subyektlərinə (“Veysəloğlu” MMC və “Promart” MMC) qarşı 2 iş qaldırılıb.*

- *Tələb olunan sənəd və məlumatların təqdim edilməməsinə görə yağ məhsullarının istehsalı, idxalı və satışı ilə məşğul olan təsərrüfat subyektlərinə (“Foodini” MMC, “Sun Food” MMC və “Bakı Qida və Yağ Fabriki” MMC) qarşı 3 iş qaldırılıb.*

# QALDIRILMIŞ İŞLƏRİN QANUN POZUNTULARI ÜZRƏ BÖLGÜSÜ

## TƏLƏB OLUNAN SƏNƏD VƏ MƏLUMATLARIN TƏQDİM EDİLMƏMƏSİNƏ GÖRƏ - 13 İŞ

"ABC-Telecom" MMC, “İrşad Electronics” MMC, “İntegral” QSC, “Elcore Distribution AZ” MMC, “Soliton LTD” MMC, “BUL Electronics” MMC, “V Telecom” MMC, “İmperius” MMC, “Veysəloğlu” MMC, “Promart” MMC, “Foodini” MMC, “Sun Food” MMC və “Bakı Qida və Yağ Fabriki” MMC;

## QİYMƏTLƏRLƏ MANİPULYASİYA EDİLMƏSİ, MÜQAVİLƏLƏRİN BAĞLANMASINDA AYRI-SEÇKİLİYƏ YOL VERİLMƏSİNƏ GÖRƏ - 1 İŞ

“Azərduz” və “Sun Food” MMC;

## KARTEL SÖVDƏLƏŞMƏSİ ƏLAMƏTLƏRİ ÜZRƏ - 1 İŞ

“Sun Food” MMC, “Veysəloğlu” MMC, “Xudafərin-1” MMC, “Babək” firması, "Elsaan Group” MMC, “Qida XXI” MMC, “Best-Tarım” MMC, “Tamashaee Foods” MMC, “Araz Supermarket” MMC, “OBA Market” MMC, “AL Market” MMC və “Bazarstore” MMC;

## QİYMƏTLƏRLƏ MANİPULYASİYA EDİLMƏSİ VƏ KARTEL SÖVDƏLƏŞMƏSİ ÜZRƏ - 1 İŞ

“Veysəloğlu” MMC, “Sun Food” MMC, "Vuqma-qida məhsulları”, “Babək” firması, “Abşeron Treyd” MMC, F/Ş Kərimov İlqar Məmmədhəsən oğlu, “Araz Supermarket” MMC, “OBA Market” MMC, “AL Market” MMC, “Bazarstore” MMC;

## QİYMƏTLƏRLƏ MANİPULYASİYA EDİLMƏSİ, MÜQAVİLƏLƏRİN BAĞLANMASINDA AYRI-SEÇKİLİYƏ YOL VERİLMƏSİ VƏ KARTEL SÖVDƏLƏŞMƏSİ ÜZRƏ - 1 İŞ

“Sun Tea Çay Fabriki” MMC, “Sun Food” MMC, “Best-Tarım” QSC, “Veysəloğlu” MMC və “Qida XXI” MMC.

**16**

İŞƏ BAXILMASI BAŞA ÇATDIRILIB

**Hesabat dövründə 16 işə baxılması başa çatdırılıb və görülmüş tədbirlər nəticəsində təsərrüfat subyektləri tərəfindən yol verilmiş pozuntular aradan qaldırılıb. Ötən hesabat dövründən 1 işə baxılması davam edir.**



## Baxılması başa çatmış işlər üzrə:

4 təsərrüfat subyektinə məlumatları təqdim etmədiyinə görə ***19 000 manat*** məbləğində maliyyə sanksiyası tətbiq edilib

| "Soliton LTD" MMC | "İrşad Electronics" MMC | "Sun Food" MMC | "Bakı Qida və Yağ Fabriki" MMC |
|---|---|---|---|
| *5 500* | *2 500* | *5 500* | *5 500* |

3 təsərrüfat subyektinə qeyri-qanuni fəaliyyətləri nəticəsində əldə etdikləri 1 973 675 manat mənfəətin (Azərbaycan Duz İstehsalat Birliyi" QSC – 690 473 manat, "Sun Food" MMC – 567 974 manat, "Veysəloğlu" MMC – 715 227 manat) dövlət büdcəsinə ödənilməsi və fəaliyyətlərinin antiinhisar qanunvericiliyinin tələblərinə uyğun qurulması barədə göstəriş verilib.

***Təsərrüfat subyektlərinin yenidən təşkili, ləğv edilməsi və səhm (pay) alqı-satqısı zamanı antiinhisar qanunvericiliyinə riayət edilməsinə dövlət nəzarəti sahəsində görülən işlər:***

Hesabat dövründə təsərrüfat subyektlərinin yenidən təşkili və səhmlərin alqı-satqısı zamanı təsərrüfat subyektləri arasında bağlanılmış əqdlərdə antiinhisar qanunvericiliyinə riayət edilməsi ilə bağlı 12 müraciət daxil olub və 9 müraciətə antiinhisar qanunvericiliyinin tələblərinə uyğun cavab verilib.

"Monolit Fermer Təsərrüfatı" MMC, "İsmayıllı-Şərab-2" MMC, "Azər Maya İstehsal" QSC, "Access Bank" QSC-nin səhm (pay) alqı-satqısı ilə bağlı müraciətlərinə baxılaraq müvafiq təhlillər aparılıb, təsərrüfat subyektlərinin hökmran mövqelərindən sui-istifadə və ya rəqabəti məhdudlaşdıran hərəkətləri müşahidə edilməyib və antiinhisar qanunvericiliyi baxımından razılığın tələb olunmamasına dair cavab məktubu göndərilib;

"Azər Maya" ASC-yə məxsus olan qeyri-maddi aktivlərin "Azər Maya İstehsal" QSC-nin mülkiyyətinə verilməsinə dair müraciətə baxılaraq müvafiq təhlillər aparılıb, təsərrüfat subyektlərinin hökmran mövqelərindən sui-istifadə və ya rəqabəti məhdudlaşdıran hərəkətləri müşahidə edilməyib və antiinhisar qanunvericiliyi baxımından razılığın tələb olunmamasına dair cavab məktubu göndərilib;

"Alshaya Azərbaycan" MMC, "İdeal Biznes Ko." MMC, "Yevro Standart" MMC və "Aztelekom" MMC-nin müraciətlərinə baxılıb, müvafiq bazar təhlilləri aparılıb, həyata keçirilməsi nəzərdə tutulan səhm (pay) alqı-satqısı əməliyyatlarının rəqabət mühitinə mənfi təsirləri təsbit edilməyib və antiinhisar qanunvericiliyinin tələblərinə uyğun olaraq razılıq verilib;

"One Solution" MMC, "Nokia Solutions and Netvorks Bakı" MMC və "EmbaFinans" MMC-nin səhmlərin alqı-satqısı zamanı təsərrüfat subyektləri arasında bağlanılıb əqdlərdə antiinhisar qanunvericiliyinə riayət edilməsi və razılıq verilməsi barədə müraciətlərə baxılması davam edir.





# QANUNVERİCİLİYİN TƏKMİLLƏŞDİRİLMƏSİ SAHƏSİNDƏ GÖRÜLƏN İŞLƏR:

2022-ci ildə antiinhisar qanunvericiliyinin təkmilləşdirilməsi məqsədilə bu sahədə mövcud qanunvericilik aktlarının əsasında beynəlxalq təcrübə, o cümlədən ABŞ, Türkiyə Respublikası, Avropa İttifaqı və MDB dövlətlərinin təcrübələri öyrənilməklə yeni Rəqabət Məcəlləsinin layihəsi müvafiq İşçi Qrupu tərəfindən hazırlanaraq aidiyyəti üzrə təqdim edilib.

Azərbaycan Respublikası Nazirlər Kabinetinin 1998-ci il 29 may tarixli 120 nömrəli Qərarı ilə təsdiq edilmiş "Antiinhisar qanunvericiliyinin pozulması haqqında işlərə baxılması Qaydaları"nda dəyişiklik edilməsi barədə Azərbaycan Respublikası Nazirlər Kabinetinin 1 oktyabr 2022-ci il tarixli 378 nömrəli Qərarına əsasən "Antiinhisar qanunvericiliyinin pozulması haqqında işlərə baxılması Qaydaları"nın 2.21-ci bəndinə aşağıdakı məzmunda dördüncü abzas əlavə edilib:

"Antiinhisar orqanının ilkin və ya təkrar tələbi ilə bu Qaydaların 3.1-ci bəndinin "c" yarımbəndində nəzərdə tutulmuş sənəd və məlumatlar təqdim edilmədikdə antiinhisar orqanları həmin sənəd və məlumatların təqdim edilməsi haqqında iddia ilə məhkəmə orqanlarına müraciət edə bilər."

# VIII Avrasiya Antiinhisar Forumunda iştirak

*10.10.2022*

İqtisadiyyat Nazirliyi yanında Antiinhisar və İstehlak Bazarına Nəzarət Dövlət Xidməti Qazaxıstan Respublikasının Rəqabətin Qorunması və İnkişafı Agentliyinin və Rəqabət Siyasətinin İnkişafı və Qorunması Mərkəzinin təşkilatçılığı ilə keçirilən VIII Avrasiya Antiinhisar Forumunda təmsil olunub.

Tədbirdə Avropa Komissiyası, Avrasiya İqtisadi Komissiyası, Müstəqil Dövlətlər Birliyinin antiinhisar orqanları və beynəlxalq təşkilatların nümayəndələri iştirak edib. Forum dəyişən reallıqda rəqabətin qorunması və dəstəklənməsi, əmtəə bazarlarında hökmran bazar mövqeyinə yanaşmalar və rəqabətin təmin edilməsi kimi məsələlərin müzakirəsinə həsr olunub. Dövlət Xidmətinin nümayəndələri tədbirdə “Azərbaycanda institusional islahatlar və transformasiya layihələri”, “Haqsız rəqabət sahəsində hüquqi-praktiki təcrübə” mövzularında təqdimatla çıxış edib.





# Biznes assosiasiyaların nümayəndələri ilə görüş

*14.10.2022*

**İqtisadiyyat Nazirliyi yanında Antiinhisar və İstehlak Bazarına Nəzarət Dövlət Xidmətində ölkəmizdə fəaliyyət göstərən biznes assosiasiyaların nümayəndələri ilə görüş keçirilib.**

Tədbirdə Azərbaycan Respublikası Sahibkarlar (İşəgötürənlər) Təşkilatları Milli Konfederasiyası, Türkiyə və Azərbaycan İş Adamları və Sənayeçilər İctimai Birliyi, Müstəqil Sənayeçi və İş Adamları Dərnəyi, Azərbaycan-Türkiyə İş Adamları Birliyi, İsrail-Azərbaycan Ticarət və Sənaye Palatası, Alman-Azərbaycan Xarici Ticarət Palatası və digər təşkilatların nümayəndələri iştirak edib.

Görüşdə qiymətlərlə manipulyasiya edilməsi, qiymət ayrı-seçkiliyinin bazarlara təsiri və qanunvericilikdə nəzərdə tutulmuş məsuliyyət, reklam sahəsində haqsız rəqabətə səbəb olan hallar, əmtəə nişanlarından qanunsuz istifadə məsələləri barədə fikir mübadiləsi aparılıb, sağlam rəqabətin formalaşmasında ictimai birliklərin rolu vurğulanıb.










# “Antiinhisar qanunvericiliyinin pozulması” mövzusunda panel konfrans

*10.10.2022*

Azərbaycan-Fransa Ticarət və Sənaye Palatasının (AFchamber) Vergi, Hüquq və Maliyyə Komitəsi ilə birgə “Antiinhisar qanunvericiliyinin pozulması” mövzusunda panel konfrans keçirilib. Tədbirdə təsərrüfat subyektləri tərəfindən antiinhisar qanunvericiliyinin pozulması ilə bağlı müzakirələr aparılıb.

# HAQSIZ RƏQABƏT VƏ REKLAM QANUNVERİCİLİYİNƏ NƏZARƏT

**48**
BAZAR SUBYEKTİNƏ QARŞI
**43**
İŞ QALDIRILIB.

Dövlət Xidmətinin fəaliyyət istiqamətlərindən biri də haqsız rəqabət sahəsində dövlət siyasətinin formalaşdırılmasında iştirak etmək və həmin siyasətin həyata keçirilməsini təmin etmək, açıq məkanda reklam istisna olmaqla, reklam fəaliyyətinə dövlət nəzarətini həyata keçirməkdir.

2022-ci ildə bazar subyektləri tərəfindən haqsız rəqabətə yol verilməsi barədə ***164, qanunsuz reklamların yayımı*** ilə əlaqədar ***51 müraciətə baxılıb***. "Haqsız rəqabət haqqında" Azərbaycan Respublikasının Qanununun tələblərinin pozulması ilə əlaqədar aparılan bazar araşdırması və daxil olmuş müraciətlərin araşdırılması zamanı bir sıra bazar subyektləri tərəfindən antiinhisar qanunvericiliyinin pozulması əlamətləri müəyyən edilib və bu əlamətlər üzrə ***48 bazar subyektinə qarşı 43 iş qaldırılıb.***

- İstehlakçının seçmə sərbəstliyinə təsir göstərən haqsız, qeyri-dəqiq və gizli reklam üsullarından istifadə olunmaqla haqsız rəqabətə yol vermə əlamətləri üzrə 6 iş;
- digər bazar subyektinin əmtəə nişanından qanunsuz istifadə etməklə haqsız rəqabətə yol vermə əlamətləri üzrə 21 iş;
- rəqibin üzərində əsassız üstünlük qazanmaq məqsədilə onun təsərrüfat qərarlarının qəbul edilməsinə və icrasına qanunsuz vasitələrlə təsir göstərilməklə haqsız rəqabətə yol vermə əlamətləri üzrə 1 iş;
- eynişərtli müqavilələrin bağlanmasında ayrı-seçkiliyə yol verilməsi, müqavilələrin məzmununa aid olmayan müqavilə şərtlərinin məcburi qəbul etdirilməsi, rəqabəti məhdudlaşdıran müqavilənin bağlanması və rəqiblərinin qərarlarının icrasına qanunsuz təsir etməsi əlamətləri üzrə 1 iş;
- istehlakçını çaşdıra bilən hər hansı məlumatlardan istifadə edilməklə, habelə əmtəənin istehlak və digər vacib xassələri barədə istehlakçını çaşdırmaq məqsədilə uyğun olmayan fərqləndirici nişanla və ya marka ilə təchiz edilməsi əlamətləri üzrə 13 iş;
- tələb olunan sənəd və məlumatların təqdim edilməməsinə görə 1 iş qaldırılıb.

# HAQSIZ RƏQABƏT
*(ədədlə)*

| | |
|---|---|
| *Mühərrik yağlarının idxalı və ticarəti* | 12 |
| *Ərzaq və qeyri-ərzaq məhsullarının satışı* | 6 |
| *İctimai iaşə xidməti* | 5 |
| *Pivə istehsalı və satışı* | 3 |
| *Tikinti materialları satışı* | 3 |
| *Çatdırılma (kuryer) xidməti* | 2 |
| *Ət məhsulları* | 2 |
| *Mobil rabitə xidməti* | 1 |
| *Salfet istehsalı və satışı* | 1 |
| *Parfüm satışı* | 1 |
| *Tibbi avadanlıqlar* | 1 |
| *Mətbəə, Kitab çapı və satışı* | 1 |
| *Mobil telefon satışı* | 1 |
| *Batareya satışı* | 1 |
| *Məişət texnikaları satışı* | 1 |
| *Çörək istehsalı* | 1 |
| *Nəqliyyat və Logistika ( yük daşıma)* | 1 |

# Qaldırılmış işlərin bazarlar üzrə bölgüsü

> 15 bazar subyektinə
> **4 426 893 manat**
> məbləğində maliyyə sanksiyası tətbiq edilməklə icrası məcburi göstərişlər verilib.

- Hesabat dövründə 32 işə baxılması başa çatdırılıb (1-i ötən hesabat dövründən davam edən) və görülmüş tədbirlər nəticəsində təsərrüfat subyektləri tərəfindən yol verilmiş pozuntular aradan qaldırılıb. 13 işə baxılması (1-i ötən hesabat dövründən davam edən iş) davam edir.

- Baxılması başa çatmış işlər üzrə 15 bazar subyektinə ( "BOKT İnternational" QSC, "Araz Supermarket" MMC, F/ş Abbasov Fikrət Əli oğlu, F/ş Muradov Qaçay Murad oğlu, F/ş Qənbərov Vüqar Tofiq oğlu, F/ş Əhmədov Azər Qurban, "Bolt Services AZ" MMC, "Azercell Telekom" MMC , F/ş Fərzəliyev Sabir Təvəl oğlu, "L-Sim" MMC, "Kaspian 2020" MMC, "GOMAS AUTO" MMC, "Muxtaroğlu-VM" MMC, "AVTO 999" MMC, F/ş Bayramov Ömər Adil oğlu) 4 426 893 manat məbləğində maliyyə sanksiyası tətbiq edilməklə icrası məcburi göstərişlər verilib. Bundan başqa, tələb olunan məlumatları və sənədləri təqdim etmədiyinə görə 2 bazar subyektinə ("MGM-21 Group" MMC, F/ş Sultanov Emil Nizami oğlu) 54 413 manat maliyyə sanksiyası tətbiq edilib.

# Reklam fəaliyyətinə dövlət nəzarəti sahəsində görülmüş işlər:

*27 bazar subyektinin əmtəələrinin reklamında reklam qanunvericiliyinin pozulması əlamətləri aşkar edilib*

Reklam fəaliyyətinə dövlət nəzarəti məqsədilə hesabat dövründə açıq məkanda, KİV-lərdə, TV-lərdə, sosial şəbəkələrdə və reklam subyektlərinə məxsus rəsmi internet səhifələri də daxil olmaqla, 240 monitorinq tədbiri (sosial şəbəkələr üzrə 35, KİV-lər üzrə 65, küçə reklamı üzrə 18, TV-lər üzrə 122) həyata keçirilib.

Aparılmış monitorinqlər zamanı 27 bazar subyektinin əmtəələrinin reklamında reklam qanunvericiliyinin pozulması əlamətləri aşkar edilib:

- Təsərrüfat mallarının satışı üzrə 2 bazar subyekti - "Omid" MMC, "Xəzər Elektron" MMC; Turizm xidmətlərinin göstərilməsi üzrə 3 bazar subyekti - "Flyblast Travel" MMC, "İN Travel" MMC, "R-Travel&Tour MMC";
- Mobil telefonların satışı üzrə 1 bazar subyekti - "Bul Electronics" MMC;
- Məişət əşyalarının satışı üzrə 1 bazar subyekti - "Soliton LTD" MMC;
- Taksi xidmətləri üzrə 2 bazar subyekti - "Xan group-S" MMC və "Ulduz taksi" MMC;
- Ərzaq məhsulları üzrə 1 bazar subyekti - "Sun Food" MMC;
- Alkoqollu içkilərin reklamı üzrə 17 bazar subyekti - "Göygöl Şərab" ASC, "Azgranata" MMC, "A+Co" ASC, "Aznar" QSC, "Gəncə Şərab-2" ASC, "Şirvan Şərabları" MMC, "Avrora" MMC, "Azər İş LTD" MMC, "Fərəh-M" MMC, "İsmayıllı Şərab-2" ASC, "Azəri" Firması, "RV Best" MMC, "Baku Spirits" MMC, "Kristall plus" QSC, "Azza" QSC, "Savalan-Aspi Vayneri" MMC, "Abşeron-Şərab" ASC

Reklam qanunvericiliyinin pozulmasına yol verən sahibkarlıq subyektləri barəsində qanunamüvafiq tədbirlər görülüb.





## “Azərbaycan Quş əti, Yumurta İstehsalçıları və İxracatçıları Assosiasiyası” İctimai Birliyinin üzvləri ilə görüş

*16.04.2022*

Antiinflyasiya tədbirləri çərçivəsində İqtisadiyyat Nazirliyi yanında Antiinhisar və İstehlak Bazarına Nəzarət Dövlət Xidmətində “Azərbaycan Quş əti, Yumurta İstehsalçıları və İxracatçıları Assosiasiyası” İctimai Birliyinin üzvləri ilə görüş keçirilib. Görüşdə antiinflyasiya tədbirləri çərçivəsində əhalinin ərzaq təhlükəsizliyini təmin etmək üçün istehlak səbətinə daxil olan məhsulların qiymətləri ilə bağlı müzakirələr aparılıb.

## Açıq məkanda reklam fəaliyyəti ilə bağlı seminar

*10.08.2022*

İqtisadiyyat Nazirliyi yanında Antiinhisar və İstehlak Bazarına Nəzarət Dövlət Xidməti açıq məkanda reklam fəaliyyəti göstərən sahibkarların, müəssisə və təşkilatların maarifləndirilməsi məqsədilə seminar keçirib. Tədbir Dövlət Reklam Agentliyi və “İçərişəhər” Dövlət Tarix-Memarlıq Qoruğu İdarəsi ilə birgə təşkil olunub. Tədbirdə reklam sahəsində sahibkarların, müəssisə və təşkilatların qarşılaşdıqları məsələlər, sahibkarların hüquq və öhdəlikləri, haqsız rəqabət və reklam qanunvericiliyinin tələbləri, eləcə də bu sahədə görülmüş işlər barədə iştirakçılar məlumatlandırılıb.

Dövlət Reklam Agentliyi və İçərişəhər Dövlət Tarix-Memarlıq Qoruğu İdarəsinin nümayəndələri açıq məkan reklamlarında əmtəə nişanından istifadə qaydaları, dil normaları, sistem üzərində hesab-fakturanın əldə edilməsi, reklam yerləşdirilməsinə dair icazə, dövlət rüsumu və ödənilən haqqın məbləği, yayımlanan reklamın formatı və digər məsələlərlə bağlı məlumat veriblər.

## Nəqliyyat vasitələrində reklamla bağlı maarifləndirici seminar

*03.10.2022*



İqtisadiyyat Nazirliyi yanında Antiinhisar və İstehlak Bazarına Nəzarət Dövlət Xidməti tərəfindən nəqliyyat vasitələrində reklam yerləşdirən sahibkarların, müəssisə və təşkilatların maarifləndirilməsi məqsədilə seminar keçirilib. Tədbir iştirakçıları Baş Dövlət Yol Polisi İdarəsi, “Azərbaycan Hava Yolları” QSC, “Bakı Metropoliteni” QSC və Bakı Nəqliyyat Agentliyinin nümayəndələri tərəfindən aidiyyəti üzrə reklam qanunvericiliyinin tələbləri barədə məlumatlandırılıblar. Seminarda nəqliyyat vasitələrində reklam yerləşdirən sahibkarların hüquq və öhdəlikləri, haqsız rəqabət və reklam qanunvericiliyinin tələbləri barədə ətraflı məlumat verilib.

## Mühərrik yağlarının idxalını həyata keçirən sahibkarlarla görüş

*01.11.2022*




İqtisadiyyat Nazirliyi yanında Antiinhisar və İstehlak Bazarına Nəzarət Dövlət Xidməti ölkəyə mühərrik yağlarının idxalını həyata keçirən sahibkarlarla görüş keçirib. Dövlət Gömrük Komitəsinin Enerji Resursları və Dəniz Nəqliyyatında Baş Gömrük İdarəsi ilə birgə keçirilən tədbirdə idxalçılar markalanma, xüsusilə də mənşə ölkəsinə dair məlumatların göstərilməsi və digər məsələlərlə bağlı maarifləndirilib. Qeyd edilib ki, son zamanlar idxal edilən bəzi malların, xüsusilə mühərrik yağlarının təsnifatı və mənşəyinə dair təqdim olunan sənədlərdə olan göstəricilərlə qablaşdırmalarda əks olunan məlumatlar arasında uyğunsuzluq halları müşahidə edilir. Haqsız rəqabət və istehlakçı hüquqlarının pozulmasına səbəb olan belə faktların aradan qaldırılması və bu sahədə nəzarət tədbirlərinin gücləndiriləcəyi iştirakçıların diqqətinə çatdırılıb. Tədbirdə idxal edilən malların üzərindəki etiket və adların, onlardan istifadə qaydaları barədə izahat vərəqələrinin başqa dillərlə yanaşı, Azərbaycan dilində də olmasının vacibliyi vurğulanıb.

# Audiovizual media sahəsində reklam fəaliyyəti ilə bağlı maarifləndirici seminar

*04.11.2022*

İqtisadiyyat Nazirliyi yanında Antiinhisar və İstehlak Bazarına Nəzarət Dövlət Xidməti və Audiovizual Şuranın təşkilatçılığı ilə audiovizual media sahəsində reklam fəaliyyəti ilə bağlı maarifləndirmə seminarı keçirilib. Seminarda televiziya və radio yayımında reklam və sponsorluğun xüsusiyyətləri, qanunvericiliyin tələbləri, “Reklam haqqında” Azərbaycan Respublikasının Qanununa təklif olunan əlavə və dəyişikliklər, haqsız, qeyri-dəqiq və gizli reklam haqqında qanunvericiliyin tələbləri, Dövlət Xidmətinin reklam fəaliyyətində nəzarət istiqamətləri və digər mövzularda çıxışlar dinlənilib. Seminar çərçivəsində Antiinhisar və İstehlak Bazarına Nəzarət Dövlət Xidməti ilə Audiovizual Şura arasında Birgə Fəaliyyət Planı imzalanıb.





# TƏBİİ İNHİSARLARA DÖVLƏT NƏZARƏTİ

Təbii inhisar subyektlərinin fəaliyyətinə dövlət nəzarətinin həyata keçirilməsi, onların istehlakçıların mənafeyinə və rəqabətə mənfi təsir göstərə bilən hərəkətlərinin qarşısının alınması və aradan qaldırılması üçün antiinhisar qanunvericiliyi ilə müəyyən edilmiş qaydada tədbirlər görmək, təbii inhisar subyektlərinin siyahısına dair İqtisadiyyat Nazirliyinə təkliflər vermək, təbii inhisar subyektlərinin dövlət nəzarətində olan hərəkətlərinin həyata keçirilməsinə razılıq vermək, təbii inhisar subyektlərinin hər biri üçün tətbiq edilməli olan tənzimləmə üsullarını qanuna uyğun müəyyənləşdirmək və tətbiq etmək, təbii inhisar subyektlərinin məhsullarının qiymətlərinin tənzimlənməsinə dair təkliflər vermək Xidmətin vəzifələrindən biri kimi müəyyən edilib.

**Təbii inhisarlar haqqında qanunvericiliyin pozulması əlamətləri üzrə işlərin qaldırılması istiqamətində görülmüş işlər:**

- Hesabat dövrü ərzində təbii inhisar subyektlərinin fəaliyyətinin antiinhisar qanunvericiliyinin tələblərinə əsasən araşdırılması üzrə **4** bazar subyekti barəsində **3** iş qaldırılıb, **4** işə baxılması (ötən ildən baxılması davam edən 2 iş) başa çatdırılıb, **2** bazar subyekti barəsində qaldırılan **1** işə baxılması davam etdirilir.

**4 bazar subyekti barəsində**

**4** — QALDIRILMIŞ İŞ

**3** — BAXILMASI BAŞA ÇADIRILMIŞ İŞ

## Təbii inhisarlar haqqında qanunvericiliyin pozulması əlamətləri üzrə işlərin qaldırılması istiqamətində görülmüş işlər:

- Rəqibin üzərində əsassız üstünlük əldə etmək məqsədilə onun təsərrüfat qərarlarının qəbul edilməsinə və icrasına qanunsuz vasitələrlə təsir göstərməsinə, habelə Dövlət Xidməti tərəfindən verilmiş göstərişin icra edilməməsinə görə "Aztelekom" MMC barəsində işə baxılması yekunlaşıb. Qanun pozuntuları sübut edilmədiyi üçün işə xitam verilib, lakin telekommunikasiya sahəsində rəqabət mühitinin yaxşılaşdırılması üzrə müvafiq daxili qaydaların 3 ay ərzində hazırlanması və tətbiqi zəruri hesab edilib.

- Təbii inhisar mövqeyindən sui-istifadə edərək dəmir yolu daşımaları, habelə tarif və güzəştlərin tətbiqi ilə bağlı rəqabətin pozulması halları üzrə "Azərbaycan Dəmir Yolları" QSC-yə haqsız rəqabət hallarının aradan qaldırılması və təbii inhisar subyektinin fəaliyyətinin təkmilləşdirilməsinə dair göstəriş verilib.

- Təbii inhisar mövqeyindən sui-istifadə edərək mənzil-tikinti kooperativləri tərəfindən yeni inşa olunan çoxmənzilli binalarda su sayğaclarının hüquqi əsas olmadan satılması üzrə "Azərsu" ASC-yə təbii inhisar qanunvericiliyi tələblərinin pozulması hallarının aradan qaldırılması barədə göstəriş verilib.

- "Azərsu" ASC-yə inhisar mövqeyindən sui-istifadə edərək su sayğaclarının hüquqi əsas olmadan satılması üzrə təbii inhisar qanunvericiliyi tələblərinin pozulması hallarının aradan qaldırılması barədə göstərişin tələblərini yerinə yetirmədiyindən ***11 000 manat maliyyə sanksiyası*** tətbiq edilib.

- Dövlət Xidməti tərəfindən "Aztelekom" MMC və "Bakı Telefon Rabitəsi" MMC-də xidmət tariflərinin qiymətində müşahidə olunan artımların antiinhisar qanunvericiliyinin tələblərinə uyğunluğunu müəyyənləşdirmək məqsədilə araşdırma aparılıb. Həmin müəssisələrlə bağlı özəl internet provayderlərindən də Dövlət Xidmətinə müraciətlər daxil olub. Belə ki, özəl internet provayderləri tariflərdə olan artımın onların fəaliyyətinə mənfi təsir göstərdiyini qeyd ediblər. Araşdırmalar nəticəsində "Aztelekom" MMC və "Bakı Telefon Rabitəsi" MMC barəsində antiinhisar qanunvericiliyinə uyğun olaraq iş qaldırılıb.

## Təbii inhisarlar haqqında qanunvericiliyin pozulması əlamətləri üzrə işlərin qaldırılması istiqamətində görülmüş işlər:

Təbii inhisar subyektlərinin göstərdiyi xidmətlərlə əlaqədar 661 müraciətə baxılıb. Bunlardan 203 müraciət təmin olunub, 58 halda araşdırma aparılıb və ərizələrdə qeyd olunan faktlar aşkar edilməyib, 253 halda vətəndaşlara qanunamüvafiq izahat və tövsiyə verilib, 24 halda ərizə baxılması üçün aidiyyəti orqanlara göndərilib, 60 halda rəy və təklif verilib, 2 halda müraciət işə alınıb, 61 müraciət üzrə araşdırmalar davam etdirilir.



## Təbii inhisar subyektlərinin normayaratma qaydasına uyğun olmayan hüquqi aktlarının müəyyənləşdirilməsi, araşdırılması və ziddiyyətli normaların ləğv edilməsi istiqamətində görülmüş işlər:




➢ Təbii qaz istifadəçilərinin obyektlərindən qazpaylayıcı şəbəkənin qoşulma nöqtəsinədək tikinti-quraşdırma işləri lisenziyası olan podratçı və ya qaz paylayıcısı tərəfindən həyata keçirilir. Müəyyən edilib ki, istehlakçılar tikinti-quraşdırma işlərinin aparılması üçün podratçı təşkilatların tapılmasında və onlara dair məlumatların əldə edilməsində çətinliklərlə üzləşirlər. Belə ki, təbii qaz təsərrüfatı obyektlərinin quraşdırılması və istismarı sahəsində lisenziya alan xeyli sayda təşkilatlar mövcud olsa da, məlumat çatışmazlığı ilə əlaqədar istehlakçıların onlara çıxış imkanları məhduddur.

Bununla əlaqədar olaraq, ictimaiyyətin məlumatlandırılması məqsədilə qeyd edilən sahədə lisenziya alan təşkilatlar barədə məlumatlar Dövlət Xidmətinin rəsmi internet səhifəsində yerləşdirilib və mütəmadi olaraq yenilənir.

# TƏDBİR VƏ GÖRÜŞLƏR

## Təbii inhisar subyektlərinin nümayəndələri ilə görüş

*11.03.2022*

İqtisadiyyat Nazirliyi yanında Antiinhisar və İstehlak Bazarına Nəzarət Dövlət Xidmətində təbii inhisar subyektlərinin nümayəndələri ilə görüş keçirilib. Tədbirdə vətəndaşlardan daxil olan müraciətlərə qanunvericiliyin tələblərinə uyğun baxılması, istehlakçıların mənafeyinin gözlənilməsi məsələləri müzakirə olunub.

## Təbii inhisar subyektlərinin rəhbərləri ilə görüş

*04.04.2022*

İqtisadiyyat Nazirliyi yanında Antiinhisar və İstehlak Bazarına Nəzarət Dövlət Xidmətinin rəhbərliyi tərəfindən "Azərişıq" ASC, "Azərsu" ASC və "Azəriqaz" İB-nin rəhbərliyi ilə görüş keçirilərək, kommunal xidmətlərin göstərilməsi sahəsində təchizatçı müəssisələr tərəfindən istehlakçıların hüquqlarının daha etibarlı təmin edilməsi istiqamətində keyfiyyət tələblərinə riayət edilməsi barədə müzakirələr aparılıb.












## Maye və təbii qaz təsərrüfatı obyektlərinin quraşdırılması və istismarını həyata keçirən sahibkarlıq subyektləri ilə görüş

*30.06.2022*

İqtisadiyyat Nazirliyi yanında Antiinhisar və İstehlak Bazarına Nəzarət Dövlət Xidmətində Vətəndaşlara Xidmət və Sosial İnnovasiyalar üzrə Dövlət Agentliyinin ("ASAN Xidmət") və "Azəriqaz" İstehsalat Birliyinin nümayəndələrinin iştirakı ilə lisenziya əsasında maye və təbii qaz təsərrüfatı obyektlərinin quraşdırılması və istismarını həyata keçirən sahibkarlıq subyektləri ilə görüş keçirilib. Görüşdə yaşayış sahəsi və təsərrüfat obyektlərindən qazpaylayıcı şəbəkənin qoşulma nöqtəsinədək tikinti-quraşdırma işlərinin aparılması üçün qanunvericiliyin tələbləri barədə məlumat verilib. Bildirilib ki, bu sahədə rəqabət və əlçatanlığın təmin olunması məqsədilə Dövlət Xidmətinin rəsmi səhifəsində təbii qaz təsərrüfatı obyektlərinin quraşdırılması və istismarı sahəsində lisenziyası olan təşkilatların siyahısı yerləşdirilib və siyahı mütəmadi olaraq yenilənir.

## İnternet xidmətlərini təqdim edən özəl provayderlərin nümayəndələri ilə görüş

*07.10.2022*

İnternet xidmətlərini təqdim edən özəl provayderlərin nümayəndələri ilə Dövlət Xidmətində görüş keçirilərək çoxmənzilli binaların mülkiyyətçiləri, yaxud idarəçilərinin onların fəaliyyətlərinə münasibətdə yaratdıqları imkanlar və maneələr müzakirə edilib. Müzakirələr nəticəsində özəl internet provayderlərin nümayəndələri bu sahədə həyata keçirilən mövcud nəzarət mexanizmləri barədə məlumatlandırılıb.

# Təbii inhisar subyektlərinin maliyyə və investisiya sahəsində rəhbər şəxsləri ilə görüş

*18.10.2022*

Təbii inhisar subyektlərinin maliyyə və investisiya bölmələrinin rəhbər şəxsləri ilə dövlət nəzarətində olan hərəkətlərin Dövlət Xidməti ilə razılaşdırılması mövzusunda maarifləndirici görüş keçirilib. Görüşdə təbii inhisar subyektləri tərəfindən dövlət nəzarətində olan hərəkətlər üzrə razılıq alınması üçün müraciətlərin edilməsi, həmin müraciətlərə baxılması və bununla əlaqədar müvafiq sənəd və məlumatların təqdim olunması ilə bağlı məsələlər müzakirə edilib. Tədbirdə istehlakçıların mənafelərinə xələl gətirən hərəkətlərin qarşısının alınması, təbii inhisar subyektləri ilə istehlakçılar arasında münasibətlərin optimallaşdırılması məqsədilə Dövlət Xidməti tərəfindən təbii inhisar subyektlərinə nəzarətin həyata keçirildiyi vurğulanıb, təbii inhisar subyektləri tərəfindən təqdim edilən sənədlərə dair tələblər görüş iştirakçılarının diqqətinə çatdırılıb.





# KEYFİYYƏT İNFRASTRUKTURU

Keyfiyyət infrastrukturu malların, işlərin, xidmətlərin və onlarla əlaqəli proseslərin keyfiyyətinin və təhlükəsizliyinin təmin edilməsinin dəstəklənməsinə və genişləndirilməsinə yönəlmiş, hüquqi və tənzimləyici çərçivəni və prosedurları ehtiva edən dövlət və özəl təşkilatlardan ibarət sistemdir. Geniş mənada keyfiyyət infrastrukturunun sistemi çoxsaylı biri-birinə bağlı fəaliyyət sahələrindən ibarətdir. Buraya texniki tənzimləmə, standartlaşdırma, uyğunluğun qiymətləndirilməsi sahəsində akkreditasiya, metrologiya və s. aiddir. Qeyd olunan sahələrdə dövlət siyasətinin formalaşdırılmasında iştirak, həmin siyasətin həyata keçirilməsinin təmin edilməsi, eləcə də dövlət nəzarətinin və tənzimlənməsinin həyata keçirilməsinin təmin edilməsi İqtisadiyyat Nazirliyi yanında Antiinhisar və İstehlak Bazarına Nəzarət Dövlət Xidmətinin fəaliyyət istiqamətlərinə aid edilib. Bununla yanaşı, keyfiyyət infrastrukturunun təməl funksiyalarından birini daşıyan "Azərbaycan Standarlaşdırma İnstitutu", "Azərbaycan Metrologiya İnstitutu" və "Azərbaycan Akkreditasiya Mərkəzi" publik hüquqi şəxslər Dövlət Xidmətinin tabeliyində fəaliyyət göstərir.

## Müvafiq sahələrdə dövlət nəzarətinin həyata keçirilməsi

"Ölçmələrin vəhdətinin təmin edilməsi haqqında" Azərbaycan Respublikası Qanununa əsasən 2022-ci ildə bir sıra dövlət müəssisə və təşkilatlarında dövlət metroloji nəzarətinin həyata keçirilməsi davam etdirilib. Dövlət Metroloji nəzarəti tədbirləri zamanı:

- *TƏBİB-in tabeliyində olan 54 tibb müəssisəsində ümumilikdə 4584;*
- *"Meliorasiya və Su Təsərrüfatı" ASC-nin tabeliyində olan yoxlama aparılmış 6 qurumda 121;*
- *Ekologiya və Təbii Sərvətlər Nazirliyinin tabeliyində olan 4 qurumda 95;*
- *Azərsu ASC-nin tabeliyində olan 3 qurumda 132;*
- *Azəriqaz İB-nin tabeliyində olan 2 qurumda 24;*
- *Azərişıq ASC-nin tabeliyində olan 2 qurumda 12*

**ölçmə vasitəsinin (cihaz, avadanlıq və s.) yoxlamadan keçirilmədən istismar edilməsi halları aşkar edilib və həmin ölçmə vasitələri dövlət nəzarətinə götürülüb.**

# Standartlaşdırma sahəsi üzrə

**68**

yeni dövlət standartı qəbul edilib

**2022-ci ildə AZSTAND tərəfindən 68 yeni dövlət standartı qəbul edilib ki, bu, 2021-ci illə müqayisədə 88,8% artım deməkdir. AZSTAND-ın nəzdində fəaliyyət göstərən laboratoriyalarda 2022-ci il ərzində 2700-dən artıq məhsul üzrə 12 825 sınaq aparılıb.**



| Görülmüş işlər | 2021 | 2022 |
|---|---|---|
| *Qəbul olunmuş yeni standartlar* | ***36*** | ***68*** |
| *Dövri yoxlanılması aparılmış və ya dəyişiklik edilərək qəbul edilmiş standartların sayı* | ***19*** | ***30*** |
| *İdarəetmə sistemlərinin sertifikatlaşdırılması ISO standartları əsasında verilmiş sertifikatların sayı* | ***3*** | ***40*** |
| *Təlim-tədris xidmətləri, ISO standartları əsasında təlim* | ***8 təlim*** *(116 nəfər)* | ***12 təlim*** *(214 nəfər)* |
| *Məhsulların sınaqları* | ***8820*** | ***12825*** |
| *Qeydiyyata alınmış texniki şərtlərin sayı* | ***230*** | ***184*** |

## Standartlaşdırma üzrə Texniki komitələrin yaradılması və mövcud Texniki komitələrin fəaliyyətinin təşkili

Azərbaycan Respublikasının "Standartlaşdırma haqqında" Qanununun 16.3-cü maddəsinə əsasən müxtəlif sahələrdə dövlət, beynəlxalq, regional, dövlətlərarası standartların işlənib hazırlanması, qüvvədə olan normativ sənədlərin dövri yoxlamasının aparılması məqsədi ilə standartlaşdırma üzrə Texniki Komitələrin yaradılması prosesi həyata keçirilir. Bununla əlaqədar olaraq, cari il ərzində AZSTAND tərəfindən **2 Texniki Komitə** təsis edilib.

*"Kənd təsərrüfatı texnikası, texnoloji avadanlıqları, suvarma sistemləri dəsti və alətlərinin" standartlaşdırılması üzrə Texniki Komitə (AZSTAND TK 41)*

*"Mülki pilotsuz uçan aparatların" standartlaşdırılması üzrə Texniki Komitə (AZSTAND/TK 42)*

## Akkreditasiya sahəsi üzrə

***111 qurum akkreditasiya edilib, 17 qurumun akkreditasiya sahəsi genişləndirilib***

2022-ci ildə Azərbaycan Akkreditasiya Mərkəzi (AzAK) tərəfindən 111 qurum akkreditasiya edilib, 17 qurumun akkreditasiya sahəsi genişləndirilib. Akkreditasiya sisteminin beynəlxalq tələblərə uyğunlaşdırılması məqsədi ilə AzAK və Türkiyə Akkreditasiya Agentliyi (TÜRKAK) arasında konsaltinq və təlim üzrə müqavilə imzalanıb və bu müqavilə çərçivəsində TürkAK tərəfindən AzAK-ın Laboratoriyaların Akkreditasiyası üzrə Beynəlxalq Təşkilata (ILAC) tam həqiqi üzv olması məqsədilə texniki yardım xidmətlərinin göstərilməsi planlaşdırılıb. AzAK-ın akkreditasiya üzrə beynəlxalq və regional təşkilatlara üzvlüyü yerli məhsulların beynəlxalq ticarətdə sərbəst dövriyyəsinə, malların rəqabətqabiliyyətliliyinin artırılması, ixracın təşviqi, habelə şəffaflığın təmin edilməsinə xidmət edir.

# Akkreditasiya sahəsi üzrə

**4,521** müraciətə baxılıb

**4,112** müraciət təmin olunub

**48** müraciət işə alınıb

**361** müraciət üzrə araşdırmalar davam etdirilir

- Metroloji fəaliyyət sahəsi ilə bağlı 4 521 müraciətə baxılıb, onlardan 4,112 halda müraciət təmin olunub, 48 müraciət işə alınıb, 361 müraciət üzrə araşdırmalar davam etdirilir.

- 592 ədəd işçi etalonu kalibrlənərək kalibrləmə sertifikatı verilib, ölkəyə idxal olunan 216 ədəd ölçmə vasitələrinin tipə uyğunluğu tanınıb və dövlət reyestrinə daxil edilib.

- Azərbaycan Metrologiya İnstitutu tərəfindən respublikada fəaliyyət göstərən təsərrüfat subyektlərinin sifarişi əsasında 549 359 ədəd qaz sayğacı, 267 271 ədəd elektrik sayğacı və 226 529 ədəd su sayğacının, eyni zamanda 80 646 ədəd digər ölçmə vasitələri və sınaq avadanlıqlarının yoxlanılması həyata keçirilib.

## Mənşə sertifikatı və malın mənşə ölkəsinin müəyyən edilməsi üzrə ekspertiza sahəsində

**61 142** mənşə sertifikatı verilib

2022-ci ildə Xidmət tərəfindən  61 142 mənşə sertifikatı verilib ki, bu da 2021-ci ilin müvafiq dövrü ilə müqayisədə 0,7% artım təşkil edir. “Malın mənşə ölkəsini təsdiq edən sertifikatın verilməsi Qaydaları”na uyğun olaraq İqtisadiyyat Nazirliyi yanında Antiinhisar və İstehlak Bazarına Nəzarət Dövlət Xidməti tərəfindən 2022-ci ilin 12 ayı ərzində 168 fiziki və 1038 hüquqi şəxsdən daxil olan müraciətlər malın mənşə ölkəsinin müəyyən edilməsi üzrə ekspertizanın keçirilməsi üçün “İstehlak Mallarının Ekspertizası Mərkəzi” MMC-yə təqdim edilib. Malın mənşə ölkəsinin müəyyən edilməsi üzrə keçirilən ekspertizaların nəticələrinə müvafiq olaraq, üstünlük təşkil edən əsas ixrac istiqamətləri Rusiya Federasiyası, Türkiyə, Gürcüstan, Ukrayna, Qazaxıstan və İtaliya Respublikaları olub.

# TƏDBİRLƏR VƏ GÖRÜŞLƏR

## “Keyfiyyət Assosiasiyası” İctimai Birliyi arasında Anlaşma Memorandumu

*05.05.2022*

İqtisadiyyat Nazirliyi yanında Antiinhisar və İstehlak Bazarına Nəzarət Dövlət Xidməti ilə “Keyfiyyət Assosiasiyası” İctimai Birliyi arasında Anlaşma Memorandumu imzalanıb. Memorandumda tərəflər arasında texniki tənzimləmə, standartlaşdırma, uyğunluğun qiymətləndirilməsi, metrologiya, akkreditasiya və ümumilikdə keyfiyyət infrastrukturu sahəsində işlərin təşkili və təkmilləşdirilməsi sahəsində əməkdaşlıq nəzərdə tutulur. Sənəddə həmçinin əməkdaşlıq çərçivəsində araşdırma və tədqiqatlar yolu ilə yeni texniki normativ sənədlərin işlənib hazırlanması, onların beynəlxalq standartlara və yerli tələbata uyğunlaşdırılması məsələləri də əksini tapıb.













## Azərbaycan Standartlaşdırma İnstitutu və Qazaxıstan Standartlaşdırma və Metrologiya İnstitutu (KazStandart) arasında standartlaşma sahəsində əməkdaşlıq

*08.06.2022*

İqtisadiyyat Nazirliyi yanında Antiinhisar və İstehlak Bazarına Nəzarət Dövlət Xidmətinin tabeliyində olan Azərbaycan Standartlaşdırma İnstitutu və Qazaxıstan Standartlaşdırma və Metrologiya İnstitutu (KazStandart) arasında standartlaşdırma sahəsində əməkdaşlıq üzrə müqavilə imzalanıb. Müqaviləyə əsasən, Azərbaycan və Qazaxıstanın standartlaşdırma üzrə milli qurumları qarşılıqlı olaraq bu ölkələrin dövlət standartlarını qəbul, tətbiq və tərcümə etmək, rəsmi nəşrlərinin yayımını təşkil etmək və tətbiqinə icazə vermək hüququ əldə edib. Qeyd edək ki, sənəd Qazaxıstan Respublikasının əmtəə istehsalçılarının Azərbaycan Respublikasında iqtisadi-ticarət missiyası və birgə biznes-forumu çərçivəsində imzalanıb.

## “Milli standartlaşdırma fəaliyyətində beynəlxalq təcrübə” mövzusunda seminar

*21.06.2022*

Avropa İttifaqının dəstəyi ilə reallaşdırılan “Azərbaycan Standartlaşdırma İnstitutuna dəstək” Tvinninq layihəsi çərçivəsində Alman Standartlar İnstitutu tərəfindən “Milli Standartlaşdırma Fəaliyyətində Beynəlxalq Təcrübə” seminarı təşkil olunub. Tədbirdə İqtisadiyyat Nazirliyi yanında Antiinhisar və İstehlak Bazarına Nəzarət Dövlət Xidmətinin, Azərbaycan Standartlaşdırma İnstitutunu, sahə üzrə texniki komitələrin nümayəndələri və xarici ekspertlər iştirak ediblər. Seminarda xarici ekspertlər tərəfindən standartlaşdırma vasitəsilə ticarətin stimullaşdırılması, milli standartlaşdırma fəaliyyətində beynəlxalq təcrübənin tətbiqi, maraqlı tərəflərin texniki komitələrə cəlb edilməsi və digər mövzularda təqdimatlar edilib, müzakirələr aparılıb.

## Türk Standartları İnstitutunun nümayəndələri ilə görüş

*06.09.2022*

İqtisadiyyat Nazirliyi yanında Antiinhisar və İstehlak Bazarına Nəzarət Dövlət Xidmətində Türk Standartları İnstitutunun (TSE) nümayəndələri ilə görüş keçirilib. Tədbirdə Azərbaycan Standartlaşdırma İnstitutu və Türk Standartları İnstitutu arasında imzalanan Anlaşma Memorandumu və Fəaliyyət Planı çərçivəsində həyata keçirilən tədbirlərdən bəhs olunub, AZSTAND-ın ölkə ərazisində Türkiyənin 9 mindən çox milli standartının rəsmi nəşrlərini dərc etmək hüququna malik olması, Türk Standartlar İnstitutu ilə əməkdaşlığın önəmi vurğulanıb.

## Türkiyə Akkreditasiya Agentliyində (TürkAK) görüş

*16.09.2022*

İqtisadiyyat Nazirliyi yanında Antiinhisar və İstehlak Bazarına Nəzarət Dövlət Xidmətinin və tabeliyindəki “Azərbaycan Akkreditasiya Mərkəzi”nin (AzAK) nümayəndələri Türkiyə Akkreditasiya Agentliyində (TürkAK) işgüzar səfərdə olublar. Səfər çərçivəsində nümayəndə heyəti TürkAK-ın fəaliyyət istiqamətləri ilə tanış olub, iki ölkənin akkreditasiya qurumları arasında əməkdaşlığın inkişaf istiqamətlərini müzakirə ediblər. TürkAK-ın Baş katibi Banu Müderrisoğlu iki qurum arasında imzalanmış müqavilə çərçivəsində görülən işlərdən, AzAK-ın nüfuzlu beynəlxalq təşkilatlara üzv olması yolunda atılmalı addımlardan danışıb və bu məsələdə TürkAK tərəfindən hər cür dəstəyin göstəriləcəyini qeyd edib. Nümayəndə heyətinə TürkAK rəhbərliyi tərəfindən bir sıra ISO standartları üzrə beynəlxalq sertifikatlar təqdim edilib.





## “Müstəqil Dövlətlər Birliyində malların mənşə ölkəsinin təyin edilməsi qaydaları haqqında Saziş”də dəyişikliklərin edilməsi üzrə İşçi Qrupun iclası

*03.10.2022*

“Müstəqil Dövlətlər Birliyində malların mənşə ölkəsinin təyin edilməsi qaydaları haqqında Saziş”də dəyişikliklərin edilməsi üzrə İşçi Qrupun videokonfrans formatında növbəti iclası keçirilib. İclasda İqtisadiyyat Nazirliyi yanında Antiinhisar və İstehlak Bazarına Nəzarət Dövlət Xidmətinin və “İstehlak Mallarının Ekspertizası Mərkəzi” MMC-nin nümayəndələri iştirak edib. Görüşdə bu ildən etibarən xarici iqtisadi fəaliyyətin mal nomenklaturası üzrə malların təsviri və kodlaşdırılmasını əks etdirən “Harmonikləşdirilmiş Sistem”in yeni versiyasının tətbiqi istiqamətində mövcud çətinliklər müzakirə edilib. “Müstəqil Dövlətlər Birliyində malların mənşə ölkəsinin təyin edilməsi Qaydaları haqqında Saziş”in müvafiq müddəalarının qeyd edilən sənədə uyğunlaşdırılması ilə bağlı təkliflər səsləndirilib, fikir mübadiləsi aparılıb.






## “Türkiyə Elmi və Texnoloji Tədqiqat Təşkilatının Milli Metrologiya İnstitutu” (TÜBİTAK ÜME) ilə Anlaşma Memorandumu

*04.10.2022*

İqtisadiyyat Nazirliyi yanında Antiinhisar və İstehlak Bazarında Nəzarət Dövlət Xidmətinin tabeliyində Azərbaycan Metrologiya İnstitutu (AzMİ) metrologiya sahəsinin təkmilləşdirilməsi və yeni ölçmə imkanlarının artırılması məqsədilə “Türkiyə Elmi və Texnoloji Tədqiqat Təşkilatının Milli Metrologiya İnstitutu” (TÜBİTAK ÜME) ilə Anlaşma Memorandumu imzalayıb. Sənədə əsasən, tərəflər səmərəliliyin artırılması üçün milli etalonların inkişafı və yenilənməsi, dövlət etalonlarının qorunması istiqamətində birgə tədqiqat fəaliyyəti, müxtəlif növ ölçmələr üçün yeni metodologiyaların hazırlanması, sahə üzrə ekspert və məsləhətçilərin cəlb edilməsi istiqamətində birgə layihələr həyata keçirəcəklər. İşgüzar görüş çərçivəsində TÜBİTAK ÜME-nin rəhbəri Mustafa Çetintaş AzMİ-nin ölçmə laboratoriyaları və dövlət etalon saxlayıcılarının fəaliyyəti ilə tanış olub, qurumlar arasında qarşılıqlı təcrübə mübadiləsi və keyfiyyət infrastrukturu sahəsində əməkdaşlığın əhəmiyyəti barədə fikirlərini bildirib.TÜBİTAK ÜME-nin rəhbəri Mustafa Çetintaş həmçinin Antiinhisar və İstehlak Bazarına Nəzarət Dövlət Xidmətinin rəisi Məmməd Abbasbəyli ilə görüşüb. Görüşdə AzMİ-də yeni laboratoriyaların yaradılması, mövcud etalon laboratoriyalarının təkmilləşdirilməsi və imzalanmış Memorandum çərçivəsində əməkdaşlıq perspektivləri barədə müzakirələr aparılıb.












## Beynəlxalq Standartlaşdırma Təşkilatının (ISO) illik toplantısında iştirak

*05.10.2022*

Azərbaycan Standartlaşdırma İnstitutunun (AZSTAND) nümayəndələri Birləşmiş Ərəb Əmirliklərində keçirilən Beynəlxalq Standartlaşdırma Təşkilatının (ISO) illik toplantısında iştirak edib. Toplantı çərçivəsində AZSTAND ilə Qazaxıstan Standartlaşdırma və Metrologiya İnstitutu arasında halal keyfiyyət infrastrukturu sahəsində Anlaşma Memorandumu imzalanıb. Tərəflər halal məhsulların müvafiq standartlaşdırma fəaliyyəti üzrə təcrübə mübadiləsi, mütəxəssislərin hazırlanması, texniki əməkdaşlıq və halal məhsulların sertifikatlaşdırılmasına dair stimullaşdırıcı tədbirlər barədə razılığa gəliblər. Razılaşmaya əsasən, halal məhsul və xidmətlərə dair standartların hazırlanması İslam Əməkdaşlıq Təşkilatı - İslam Ölkələrinin Standartlaşdırma və Metrologiya İnstitutunun tələblərinə uyğun olaraq həyata keçiriləcək.

## Ümumdünya Standartlaşdırma Gününə həsr edilən tədbir

*14.10.2022*

İqtisadiyyat Nazirliyi yanında Antiinhisar və İstehlak Bazarına Nəzarət Dövlət Xidmətində Ümumdünya Standartlaşdırma Gününə həsr edilən tədbir keçirilib. Tədbirdə standartlaşdırma sahəsində görülən işlər barədə məlumat verilib, yeni standartların tətbiqinin proseslərin optimallaşdırılması, keyfiyyətin artırılması, insanların həyat və sağlamlığı, ətraf mühit və əmlakın mühafizəsi tədbirlərinin icrasında rolu qeyd olunub. Tədbirin sonunda Azərbaycan Standartlaşdırma İnstitutunun fəaliyyətinə dair təqdimat keçirilib.








## Tvinninq layihəsinin yekun konfransı

*26.10.2022*

Avropa İttifaqı tərəfindən maliyyələşdirilən Milli Standartlaşdırma Sisteminin beynəlxalq tələblərə uyğunlaşdırılmasına dair Tvinninq layihəsinin yekun konfransı keçirilib. Layihə Almaniyanın İqtisadi Məsələlər və İqlim Fəaliyyəti üzrə Federal Nazirliyi, eləcə də İspaniya, İsveç və Almaniya Standartlaşdırma İnstitutlarının dəstəyi ilə reallaşdırılıb. Layihə üzrə əsas benefisiar Antiinhisar və İstehlak Bazarına Nəzarət Dövlət Xidmətinin tabeliyində fəaliyyət göstərən Azərbaycan Standartlaşdırma İnstitutudur.

Konfransda çıxış edən İqtisadiyyat Nazirliyi yanında Antiinhisar və İstehlak Bazarına Nəzarət Dövlət Xidmətinin rəisi Məmməd Abbasbəyli təmsil etdiyi qurumun fəaliyyət istiqamətləri barədə məlumat verib. Keyfiyyət sahəsində görülən işlərdən danışan Xidmət rəisi layihənin standartlaşdırma sahəsinin inkişafında əhəmiyyətli olacağını vurğulayıb. Avropa İttifaqının Azərbaycandakı səfiri Peter Mixalko, Almaniyanın Azərbaycandakı səfiri Ralf Horleman, İsveçin Azərbaycandakı səfiri Tobias Lorentzson və digərləri çıxışlarında layihənin uğurlu icrasını qeyd ediblər. Layihənin icrası ərzində 25-dən çox beynəlxalq ekspert tərəfindən keçirilən seminarda 200-ə yaxın yerli mütəxəssis iştirak edib. Layihənin əsas məqsədi Azərbaycanda standartlaşdırma sisteminin təkmilləşdirilməsi, Azərbaycan Standartlaşdırma İnstitutunun hüquqi, maliyyə mexanizmlərinin və rəqəmsal transformasiyasının gücləndirilməsidir.

Konfransda milli standartlaşdırma strategiyası, standartlaşdırma üzrə institusional yol xəritəsi, texniki tənzimləmə və bazara nəzarət mexanizmləri, texniki komitələrin fəaliyyətinin təkmilləşdirilməsi və digər məsələlər üzrə əldə edilmiş nəticələrin yekunu və gələcək fəaliyyət istiqamətləri barədə çıxışlar edilib və təqdimatlar keçirilib.

## Biznes assosiasiyalarının nümayəndələri ilə görüş

*08.12.2022*

İqtisadiyyat Nazirliyi yanında Antiinhisar və İstehlak Bazarına Nəzarət Dövlət Xidməti, Kiçik və Orta Biznesin İnkişafı Agentliyi, İxracın və İnvestisiyaların Təşviqi Agentliyi ilə biznes assosiasiyalarının nümayəndələri arasında görüş keçirilib. Görüşdə keyfiyyətin idarəedilməsi, texniki tənzimləmə, standartlaşdıma, metrologiya və uyğunluğun qiymətləndirilməsi sahəsində Dövlət Xidmətinin, eləcə də Azərbaycan Standartlaşdırma İnstitutu, Azərbaycan Metrologiya İnstitutu və Azərbaycan Akkreditasiya Mərkəzi tərəfindən görülən işlər barədə məlumat verilib. Mal, iş və xidmətlərə dair keyfiyyətlə bağlı məsələlərin daim diqqətdə saxlanılması və bu istiqamətdə Dövlət Xidməti ilə dialoqun davam etdirilməsinin vacibliyi vurğulanıb.

## Salyan rayonunda yerləşən yeyinti və kənd təsərrüfatı mallarının sınaq laboratoriyasına mediatur

*27.12.2022*

İqtisadiyyat Nazirliyi yanında Antiinhisar və İstehlak Bazarına Nəzarət Dövlət Xidmətinin tabeliyində olan Azərbaycan Standartlaşdırma İnstitutunun Salyan rayonunda yerləşən yeyinti və kənd təsərrüfatı mallarının sınaq laboratoriyasına mediatur təşkil olunub. KİV nümayəndələrinə institutun fəaliyyət istiqamətləri, qəbul olunan yeni standartlar və onların tətbiq sahələri barədə ətraflı məlumat verilib. Mediatur çərçivəsində media mənsubları yeyinti və kənd təsərrüfatı mallarının sınaq laboratoriyasında taxılın keyfiyyət analizi, tütün məmulatlarında nəmliyin, süddə turşuluğun, duz məhsullarında yodun təyini və digər analizlərin aparılması prosesi ilə əyani tanış olublar.





# DÖVLƏT SATINALMALARINA NƏZARƏT

İqtisadiyyat Nazirliyi yanında Antiinhisar və İstehlak Bazarına Nəzarət Dövlət Xidməti dövlət satınalmalarına nəzarət funksiyası çərçivəsində dövlət vəsaiti hesabına malların (işlərin və xidmətlərin) satın alınması sahəsində dövlət siyasətinin aidiyyəti dövlət orqanları ilə birlikdə həyata keçirilməsində iştirak edir və bu sahədə dövlət nəzarətinin həyata keçirilməsini təmin edir.

2022-ci ildə ümumi satınalmaların məbləği 6779,2 milyon manata yaxın olub, bunun da 95%-i mikro, kiçik və orta sahibkarlıq subyektlərinin payına düşüb. Ötən illə müqayisədə məbləğ üzrə müsabiqə əsaslı satınalmaların həcmi 70,1 % artıb, bir-mənbədən satınalmalar isə 32,3 % azalıb. 2022-ci ildə kotirovka sorğusu metodu ilə keçirilən satınalmalar tamamilə elektronlaşdırılıb. 2022-ci ildə elektron satınalmaların ümumi satınalmalarda payı say üzrə 59,1%, məbləğ üzrə 18,8% təşkil edib.

| Satınalmalar | 2022-ci il mln. manat | 2021-ci illə müqayisədə dəyişmə, mln. manat | 2021-ci illə müqayisədə dəyişmə, faiz ilə |
|---|---|---|---|
| *Ümumi satınalma* | *6779,2* | *767,5* | ***12,8%*** |
| *Müsabiqə əsaslı satınalmalar* | *4500,8* | *1854,7* | ***70,1%*** |

| | |
|---|---|
| *Açıq tender* | **180** |
| *Kotirovka sorğusu* | **3271** |
| *Elektron açıq tender* | **3883** |
| *Təkliflər sorğusu* | **1002** |

*Satınalmaların say üzrə 180-i açıq tender, 3883-ü elektron açıq tender, 3271-i kotirovka sorğusu, 1002-si isə təkliflər sorğusu formasında keçirilib.*

# DÖVLƏT SATINALMALARINA NƏZARƏT

**10595**
*Yekun protokol təhlil olunub*

**1131**
*Şikayət və müraciət araşdırılıb*

2021-ci illin müvafiq dövrü ilə müqayisədə 2022-ci il ərzində keçirilmiş dövlət satınalmalarında dövlət vəsaitinə qənaət edilmiş məbləğ artıb. Kotirovka sorğusu üsulu ilə keçirilən satınalmaların elektronlaşması, sahibkarların dövlət satınalmalarında aktiv iştirakı, satınalma iştirakçılarının maariflənməsi və Dövlət Xidməti tərəfindən nəzarət tədbirlərinin gücləndirilməsi bu artıma əhəmiyyətli töhfə verib.

2022-ci ilin hesabat dövrü ərzində keçirilmiş müsabiqələrin nəticələri barədə 10595 yekun protokol təhlil olunub, 1131 şikayət və müraciət araşdırılıb, satınalmaların açıq tender prosedurlarından əlavə, digər satınalma metodlarının tətbiqi, habelə müvafiq qaydada razılaşdırılması tələb olunan 8132 müraciət qanunvericiliyin tələblərinə uyğun cavablandırılıb.

Təhlil edilmiş protokollar üzrə müsabiqədə qanunvericiliyin tələblərinin pozulması halları aşkar olunmuş 1409 yekun protokol (13,3%) Dövlət Xidməti tərəfindən ləğv edilib. 492 protokol yenidən qiymətləndirilib və təkrar təqdim edilmə məqsədilə geri qaytarılıb.

# TƏDBİRLƏR VƏ GÖRÜŞLƏR




## Asiya İnkişaf Bankının Azərbaycanda satınalmalarla bağlı islahatlar – məsləhətləşmə missiyasının nümayəndələri ilə görüş

*10.10.2022*



İqtisadiyyat Nazirliyi yanında Antiinhisar və İstehlak Bazarına Nəzarət Dövlət Xidmətində Asiya İnkişaf Bankının (AİB) Azərbaycanda satınalmalarla bağlı islahatlar – məsləhətləşmə missiyasının nümayəndələri ilə görüş keçirilib. Görüşdə dövlət satınalmaları sahəsində aparılan islahatlar, səmərəlilik və şəffaflığın təmin edilməsi məqsədilə həyata keçirilən sistemli tədbirlər barədə məlumat verilib, bu sahədə qanunvericiliyin təkmilləşdirilməsi və beynəlxalq təcrübəyə uyğunlaşdırılması istiqamətində görülən işlərdə AİB-nin rolu qeyd edilib.

## Təhsil Nazirliyinin əməkdaşları üçün "Dövlət satınalmalarının təşkili: rəqabətlilik və səmərəliliyin təmin edilməsi" mövzusunda təlim

*04.05.2022*

Dövlət satınalmalarında iştirak edən tərəflərin maarifləndirilməsi məqsədilə İqtisadiyyat Nazirliyi yanında Antiinhisar və İstehlak Bazarına Nəzarət Dövlət Xidməti növbəti seminar keçirib. Təlim Təhsil Nazirliyinin əməkdaşları üçün təşkil olunub. "Dövlət satınalmalarının təşkili: rəqabətlilik və səmərəliliyin təmin edilməsi" mövzusunda keçirilən interaktiv təlimdə dövlət satınalmalarının planlaşdırılması, təşkili və metodları, iddiaçıların ixtisasına dair tələblər, tender təkliflərinin qiymətləndirilməsi və müqayisəsi barədə məlumat verilib. Bununla yanaşı, tədbir iştirakçıları ilə satınalmanın nəticələri, satınalma müqaviləsinin bağlanması və idarə olunması müzakirə olunub.



## Dövlət satınalmaları ilə bağlı Azərbaycan İnvestisiya Holdinqi, Tibbi Ərazi Bölmələrini İdarəetmə Birliyi (TƏBİB) və Təhsil Nazirliyi ilə birgə təlim

*26.05.2022*

Azərbaycan İnvestisiya Holdinqi, Tibbi Ərazi Bölmələrini İdarəetmə Birliyi (TƏBİB) və Təhsil Nazirliyi ilə birgə təşkil olunan “Dövlət satınalmalarının təşkili: rəqabətlilik və səmərəliliyin təmin edilməsi” mövzusunda silsilə təlimlər keçirilib. Təlimlərdə dövlət satınalmalarının planlaşdırılması, təşkili və metodları, iddiaçıların ixtisasına dair tələblər, tender təkliflərinin qiymətləndirilməsi və müqayisəsi barədə məlumat verilib, tədbir iştirakçıları ilə satınalmanın nəticələri, satınalma müqaviləsinin bağlanması və idarə olunması müzakirə olunub.








## “Dövlət satınalmalarının sahəsində sahibkarların maarifləndirilməsi” mövzusunda təlim

*30.06.2022*

Azərbaycan Respublikası Sahibkarlar (İşəgötürənlər) Təşkilatları Milli Konfederasiyası (ASK) ilə birgə təşkil olunan “Dövlət satınalmalarının sahəsində sahibkarların maarifləndirilməsi” mövzusunda keçirilən interaktiv təlimdə satınalmalarda iştirakın planlaşdırılması, ixtisas uyğunluğu göstəriciləri, müqavilənin icrası, elektron satınalmalarda iştirakın əyani təqdimatı, satınalma sənədləri, təkliflərin təqdim edilməsi və qiymətləndirilməsi barədə məlumat verilib.

## Tibb sahəsində fəaliyyət göstərən qurumların əməkdaşları üçün dövlət satınalmaları ilə bağlı təlim

*04.07.2022*

Dövlət satınalmalarında iştirak edən tərəflərin maarifləndirilməsi məqsədilə İqtisadiyyat Nazirliyi yanında Antiinhisar və İstehlak Bazarına Nəzarət Dövlət Xidməti növbəti seminar keçirib. Təlimdə İcbari Tibbi Sığorta üzrə Dövlət Agentliyinin, Tibbi Ərazi Bölmələrini İdarəetmə Birliyinin və TƏBİB-in tabeliyində olan dövlət tibb müəssisələrinin əməkdaşları iştirak edib. "Dövlət satınalmalarının təşkili: rəqabətlilik və səmərəliliyin təmin edilməsi" mövzusunda keçirilən interaktiv təlimdə dövlət satınalmalarının planlaşdırılması, təşkili və metodları, iddiaçıların ixtisasına dair tələblər, tender təkliflərinin qiymətləndirilməsi və müqayisəsi barədə məlumat verilib. Bununla yanaşı, tədbir iştirakçıları ilə satınalmanın nəticələri, satınalma müqaviləsinin bağlanması və idarə olunması məsələləri barədə fikir mübadiləsi aparılıb.







## Asiya İnkişaf Bankının nümayəndələri ilə görüş

*18.10.2022*

İqtisadiyyat Nazirliyi yanında Antiinhisar və İstehlak Bazarına Nəzarət Dövlət Xidmətində Asiya İnkişaf Bankının (AİB) nümayəndələri ilə görüş keçirilib. Görüşdə “Dövlət satınalmaları haqqında” yeni Qanun layihəsi, tenderlərin səmərəliliyinin artırılması, satınalma əməliyyatları və digər mövzular barədə müzakirələr aparılıb.

## Dövlət Sərhəd Xidmətinin əməkdaşları üçün “Dövlət satınalmalarının təşkili: rəqabətlilik və səmərəliliyin təmin edilməsi” mövzusunda təlim

*18.10.2022*

İqtisadiyyat Nazirliyi yanında Antiinhisar və İstehlak Bazarına Nəzarət Dövlət Xidməti və Dövlət Sərhəd Xidmətinin təşkilatçılığı ilə “Dövlət satınalmalarının təşkili: rəqabətlilik və səmərəliliyin təmin edilməsi” mövzusunda təlim keçirilib. Təlimdə qurumlar arasında gələcək fəaliyyətin təşkili ilə bağlı elektron satınalma prosedurlarının vahid internet portalında həyata keçirilməsi zamanı şəffaflığın artırılması məqsədilə kompleks tədbirlərin görülməsinin vacibliyi vurğulanıb, tender komissiyalarının üzvləri və satınalma mütəxəssislərinin sualları cavablandırılıb.

# İSTEHLAKÇI HÜQUQLARININ MÜDAFİƏSİ VƏ İSTEHLAK BAZARINA NƏZARƏT

**5570** müraciət daxil olub

**318 358 ₼** istehlakçılara qaytarılıb

**19 837 ₼** dəymiş ziyan ödənilib

İstehlak bazarına nəzarət və istehlakçı hüquqlarının müdafiəsi Dövlət Xidmətinin fəaliyyət sahəsinə aid məsələlərdəndir. Bu sahədə Dövlət Xidmətinin qarşısında duran əsas vəzifə istehlakçıların keyfiyyətli və təhlükəsiz mal, iş və xidmətlərlə təmin olunmasına, mal satılarkən, iş görülərkən, xidmət göstərilərkən onların hüquqlarının pozulmasının qarşısının alınmasına, pozulmuş hüquqların bərpa edilməsinə nail olmaqdan ibarətdir.

2022-ci il ərzində istehlak bazarına nəzarət və istehlakçı hüquqlarının qorunması ilə bağlı vətəndaşlardan 5570 müraciət daxil olub. Təmin olunmuş 2260 müraciət üzrə sahibkarlıq subyektləri tərəfindən 318 358 manat vəsait istehlakçılara qaytarılıb, 19 837 manat dəyərində dəymiş ziyan ödənilib.

| MÜRACİƏTLƏR | SAYI |
|---|---|
| **Vətəndaşlardan daxil olan və baxılmış müraciətlər** | **5 570** |
| *Təmin olunub* | 2 260 |
| *Araşdırma nəticəsində ərizələrdə qeyd olunan faktlar aşkar edilməyib* | 77 |
| *Vətəndaşlara qanunamüvafiq izahat və tövsiyə verilib* | 2 083 |
| *Ərizə baxılması üçün aidiyyəti orqanlara göndərilib* | 427 |
| *Aidiyyəti üzrə müraciət etmələri tövsiyə olunub* | 44 |
| *Zəruri sənədlər təqdim edilmədiyindən müraciətə baxılması dayandırılıb* | 182 |
| *İşə alınıb* | 1 |
| *Araşdırması davam edən* | 496 |

# İSTEHLAKÇI HÜQUQLARININ MÜDAFİƏSİ VƏ İSTEHLAK BAZARINA NƏZARƏT

- Mallar üzrə müraciətlər
- Xidmətlər üzrə müraciətlər
- Digər müraciətlər




Baxılmış **5570** müraciətin **2977-si (54%)** mallar, **2187-si (39%)** xidmətlər, **406-sı** isə **(7%)** isə digər sahələr üzrə olub.

## Mallar üzrə cəmi 2,977

| | |
|---|---|
| Məişət texnikası | 628 |
| Geyim əşyaları | 475 |
| Mobil telefonlar | 468 |
| Məişət əşyaları | 300 |
| Ərzaq malları və çörək | 209 |
| Qeyri-ərzaq malları və dərmanlar | 178 |
| Digər mallar | 719 |

## Xidmətlər üzrə cəmi 2,187

| | |
|---|---|
| Nəqliyyat xidmətləri və rabitə | 314 |
| Maliyyə xidməti | 168 |
| Kommunal xidmət | 141 |
| İctimai iaşə xidməti | 139 |
| Tibb xidməti | 95 |
| Turizm xidməti | 66 |
| Digər Xidmətlər | 1,264 |

## Digər sahələr üzrə cəmi 406

# İSTEHLAKÇI HÜQUQLARININ MÜDAFİƏSİ VƏ İSTEHLAK BAZARINA NƏZARƏT

- Daxil olmuş müraciətlər əsasında aparılmış araşdırmalara əsasən qiymət intizamının pozulmasına - Azərbaycan Respublikasının ərazisində satılan malların (işlərin, xidmətlərin) qiymətlərinin manatla göstərilməməsinə görə 1 hüquqi şəxs, qanunvericilikdə nəzərdə tutulan hüquqlarla müqayisədə istehlakçının hüquqlarını məhdudlaşdıran şərtlərin müqaviləyə daxil edilməsinə və satılmış malların dəyişdirilməsi və ya geri qaytarılması qaydalarının pozulmasına görə 4 hüquqi şəxs, aptekdə qiyməti Tarif (Qiymət) Şurası tərəfindən təsdiq edilmiş dərman vasitələrinin fərqli qiymətə satılmasına görə 2 hüquqi şəxs, mal satan və ya əhaliyə xidmət göstərən şəxslər tərəfindən malın (xidmətin) ölçüsünə, çəkisinə, hesabına, habelə istehlak xüsusiyyətinə və ya keyfiyyətinə dair istehlakçıların az miqdarda aldadılmasına görə 7 hüquqi və 3 fiziki şəxs, istifadə müddəti ötmüş məhsulların satılmasına görə 1 hüquqi şəxs, istifadə olunan tərəzinin düz çəkməməsinə görə 2 hüquqi şəxs, istehlakçının mal (iş, xidmət) haqqında məlumat almaq hüququnun pozulmasına görə 1 hüquqi şəxs barəsində inzibati xəta haqqında protokol tərtib edilib. Hüquqi şəxslər barəsində tərtib edilmiş protokollar və iş üzrə toplanmış digər materiallar baxılması üçün məhkəməyə göndərilib, fiziki şəxslər barəsində isə Dövlət Xidmətində inzibati tənbeh vermə haqqında qərar qəbul edilib.

- İstehlak bazarında aparılan müşahidələr zamanı 9 müəssisə tərəfindən idxal olunan qeyri-ərzaq mallarının etiketlərində istehlakçılar üçün Azərbaycan dilində zəruri məlumatların olmadığı aşkar olunub və bu pozuntu hallarının aradan qaldırılması ilə bağlı həmin müəssisələrə məktublar ünvanlanıb. Həmin müəssisələrdən 5-i malların üzərində Azərbaycan dilində məlumatların yerləşdirilməsini təmin edib, 2-si qismən təmin olunub, 1-i gələcəkdə idxal edəcək məhsulların üzərinə məlumatların yerləşdiriləcəyinə təminat verib, 1 müəssisə isə üzərində Azərbaycan dilində məlumatlar olmayan məhsulları satışdan çıxararaq təchizatçı müəssisəyə geri qaytarıb.

- İctimai iaşə (kafe və restoran) sektorunda istehlakçıların hüquqlarının pozulması hallarının qarşısının alınması məqsədilə bu sahədə mövcud qanunvericiliyin tələbləri əks olunmuş bildiriş və menyunun nümunəvi forması hazırlanıb və Bakı şəhəri üzrə 1496, Regionlar üzrə isə 780 ictimai iaşə obyektinə paylanılması təmin olunub.

# TƏDBİRLƏR VƏ GÖRÜŞLƏR

## Ümumdünya İstehlakçı Hüquqlarının Müdafiəsi Günü ilə əlaqədar Dəyirmi Masa keçirilib

*15.03.2022*

İqtisadiyyat Nazirliyi yanında Antiinhisar və İstehlak Bazarına Nəzarət Dövlət Xidmətində 15 mart Ümumdünya İstehlakçı Hüquqlarının Müdafiəsi Günü ilə əlaqədar Dəyirmi Masa keçirilib.

Tədbirdə Vəkillər Kollegiyasının Rəyasət Heyətinin sədri Anar Bağırov, Ədliyyə Nazirliyinin Ədliyyə Akademiyasının prorektoru, rektor vəzifəsini icra edən Elçin Xələfov, Mediasiya Şurasının İdarə Heyətinin sədri Nadir Adilov və həmin qurumların nümayəndələri iştirak ediblər.

Görüşdə istehlakçıların müraciətləri üzrə araşdırmanın aparılması, istehlakçıların hüquqlarının müdafiəsi ilə bağlı məhkəmə qərarlarına dair praktiki məsələlərin müzakirəsi, inzibati orqan tərəfindən ekspertizanın həyata keçirilməsinin mümkünlüyü müzakirə olunub. İstehlakçıların hüquqlarının pozulması ilə bağlı mübahisələrə məhkəmədənkənar alternativ həll vasitəsi olan mediasiyanın tətbiqi ilə bağlı müxtəlif fikir və təkliflər səsləndirilib.







## Vəkillər və vəkilliyə namizədlər üçün onlayn təlim

*22.04.2022*

Dövlət Xidmətinin təşəbbüsü ilə “İstehlakçı hüquqlarının müdafiəsi mexanizmləri” mövzusu Ədliyyə Akademiyasında icbari təlim kursu proqramı və Vəkillər Kollegiyasının Hüquqi Yardım və Tədris Mərkəzinin vəkillərin ixtisasartırma kursunun proqramına daxil edilib. Peşəkar vəkillər və vəkilliyə namizəd 119 nəfər üçün onlayn təlim keçirilib. Təlimdə iştirakçılara Dövlət Xidmətinin fəaliyyət istiqamətləri, istehlakçı anlayışı, istehlakçıların əsas hüquq və vəzifələri, istehlakçı hüquqlarının müdafiəsi barədə məlumat verilib.




## “Ticarət şəbəkələrinin inkişafı” İctimai Birliyi və iri ticarət şəbəkələrinin rəhbərləri ilə görüş

*01.06.2022*

İqtisadiyyat Nazirliyi yanında Antiinhisar və İstehlak Bazarına Nəzarət Dövlət Xidmətində Ekologiya və Təbii Sərvətlər Nazirliyinin, Kiçik və Orta Biznesin İnkişafı Agentliyinin məsul şəxslərinin, eləcə də, “Ticarət şəbəkələrinin inkişafı” İctimai Birliyi və Birliyə daxil olan iri ticarət şəbəkələrinin rəhbərlərinin iştirakı ilə görüş keçirilib. Tədbirdə qalınlığı 15 mikrona qədər olan polietilen torbalar və birdəfəlik istifadə üçün nəzərdə tutulan plastik qab-qacaq (qarışdırıcı çubuq, çəngəl, qaşıq, bıçaq, boşqab və stəkan) məhsullarının ticarət şəbəkələrində satılmasının qadağan olunması barədə qanunvericiliyin tələbləri haqqında ətraflı məlumat verilib. Qeyd edilib ki, belə məhsullar ətraf mühitə və insan sağlamlığına ziyan vurmaqla yanaşı, təkrar emala yararlı deyil. Görüşdə həmçinin qalınlığı 15-50 mikron olan polietilen torbaların istehlakçılara ayrıca məhsul növü kimi təqdim edilməsi və satış qiyməti barədə əvvəlcədən məlumatın verilməsinin vacibliyi vurğulanıb.











## Mediatorlar üçün maarifləndirmə kursu

*01.06.2022*

İqtisadiyyat Nazirliyi yanında Antiinhisar və İstehlak Bazarına Nəzarət Dövlət Xidmətinin, Ədliyyə Nazirliyinin Ədliyyə Akademiyasının və Mediasiya Şurasının birgə tərəfdaşlığı ilə mediatorlar üçün təşkil edilən istehlakçı hüquqlarının müdafiəsinə dair maarifləndirmə kurslarının növbəti mərhələsi başa çatıb. Kursları bitirən daha 35 mediatora sertifikatlar təqdim olunub. Mediatorların bilik və bacarıqlarının artırılmasına yönələn və iki gün davam edən təlimlərdə Dövlət Xidmətinin mütəxəssisləri tərəfindən istehlakçıların hüquqlarının müdafiəsi mexanizmləri, istehlakçının hüquq və vəzifələri, istehlak bazarına nəzarət tədbirləri, təbii inhisarlara dövlət nəzarəti barədə məlumat verilib.

## Gəncə şəhərində sahibkarlarla görüş

*08.07.2022*

İstehlakçı hüquqlarının daha etibarlı müdafiəsini təmin etmək və sahibkarları istehlak bazarına nəzarət mexanizmlərinə dair maarifləndirmək məqsədilə İqtisadiyyat Nazirliyi yanında Antiinhisar və İstehlak Bazarına Nəzarət Dövlət Xidməti istehlakçı müraciətlərinin təhlili əsasında regionunda fəaliyyət göstərən sahibkarlarla görüşlərin keçirilməsinə başlayıb. İlk görüş Dövlət Xidmətinin məsul şəxslərinin iştirakı və 12 saylı regional bölməsinin təşkilatçılığı ilə Gəncə şəhərində keçirilib. Müzakirələr xidmət müəssisələrində istehlakçı hüquqlarının ən çox pozulduğu hallarla bağlı təşkil edilib. Qeyd olunub ki, istehlakçı müraciətlərinə operativ reaksiya vermək üçün bu sahədə məsul şəxslərin və reqlamentin müəyyən olunması, çağrı mərkəzlərinin fəaliyyətində effektivliyin artırılması əsas şərtlərdəndir. Görüşdə həmçinin turizm mövsümünün başlaması ilə əlaqədar bu sahədə istehlakçı məmnuniyyətinin təmin edilməsi üçün dövlət standartlarının tətbiqinin vacibliyi vurğulanıb.

## Cəlilabadda sahibkarlarla görüş

*05.10.2022*

İqtisadiyyat Nazirliyi yanında Antiinhisar və İstehlak Bazarına Nəzarət Dövlət Xidməti istehlakçı müraciətlərinin təhlili əsasında regionlarda fəaliyyət göstərən sahibkarlarla görüşlərin keçirilməsini davam etdirir. Növbəti bu cür görüş Cəlilabadda təşkil edilib. Biznes subyektləri və Dövlət Xidmətinin nümayəndələrinin iştirakı ilə keçirilən müzakirələrdə xidmət müəssisələrində istehlakçı hüquqlarının daha çox pozulduğu hallara dair fikirlər bildirilib, istehlakçı məmnuniyyətinin təmin edilməsinin vacibliyi vurğulanıb.

## Dərman vasitələrinin idxalını, topdan və pərakəndə satışını həyata keçirən bazar iştirakçıları ilə görüş

*28.10.2022*

İqtisadiyyat Nazirliyi yanında Antiinhisar və İstehlak Bazarına Nəzarət Dövlət Xidmətində dərman vasitələrinin idxalını, topdan və pərakəndə satışını həyata keçirən əsas bazar iştirakçıları ilə görüş keçirilib. Görüşdə dərman vasitələrinin üzərində Tarif (qiymət) Şurası tərəfindən tənzimlənmiş qiymətlərin qanunvericiliklə müəyyən olunmuş qaydada göstərilməsinin və satışın tənzimlənmiş qiymətlərə uyğun aparılmasının vacibliyi vurğulanıb. Apteklərdə satılan dərman vasitəsi olmayan digər məhsulların da satışında qiymət intizamına əməl edilməsi, malların dəyişdirilməsi və qaytarılması ilə bağlı qanunvericiliyin tələbləri müzakirə edilib. Görüş iştirakçıları istehlak bazarına nəzarət və istehlakçı hüquqları, eyni zamanda Dövlət Xidmətinin dərman vasitələri haqqında qanunvericilik sahəsində səlahiyyətləri ilə bağlı məlumatlandırılıb.





## Mediatorlar üçün təlim

*04.11.2022*

Antiinhisar və İstehlak Bazarına Nəzarət Dövlət Xidmətinin, Ədliyyə Nazirliyinin Ədliyyə Akademiyasının və Mediasiya Şurasının birgə tərəfdaşlığı ilə mediatorlar üçün maarifləndirmə təlimi keçirilib. Kursu bitirən 65 mediatora sertifikatlar təqdim olunub. Təlimlərdə istehlakçının hüquq və vəzifələri, istehlakçıların hüquqlarının müdafiəsi mexanizmləri, istehlak bazarına nəzarət tədbirləri, istehlak mallarının keyfiyyət və təhlükəsizlik standartları barədə məlumatlar verilib.



## Şamaxı şəhərində sahibkarlarla görüş

*29.11.2022*

İqtisadiyyat Nazirliyi yanında Antiinhisar və İstehlak Bazarına Nəzarət Dövlət Xidməti ilə regionlarda fəaliyyət göstərən sahibkarlar arasında istehlakçı hüquqlarının müdafiəsi sahəsində görüşlərin keçirilməsi davam etdirilir. Növbəti görüş Şamaxı şəhərində Dağlıq Şirvan iqtisadi rayonunda fəaliyyət göstərən sahibkarlarla təşkil olunub. Görüşdə Dövlət Xidmətinə ünvanlanan istehlakçı müraciətləri təhlil edilib, bununla bağlı müzakirələr aparılıb, bu sahədə qanunvericiliyin tələbləri barədə məlumat verilib, istehlakçı məmnuniyyəti və istehlakçı hüquqlarının təmin edilməsinin vacibliyi vurğulanıb.



## Elektronika məhsullarının satışı və daşıma xidməti göstərən şirkətlərin nümayəndələri ilə görüş

*13.12.2022*

İqtisadiyyat Nazirliyi yanında Antiinhisar və İstehlak Bazarına Nəzarət Dövlət Xidmətində elektronika məhsullarının satışını həyata keçirən, eləcə də daşıma xidməti göstərən şirkətlərin nümayəndələri ilə görüş keçirilib. Tədbirdə istehlakçı hüquqları ilə bağlı qanunvericilik, o cümlədən ticarət şəbəkələrində tətbiq olunan kampaniyalar zamanı istehlakçı hüquqlarına dair tələblər sahibkarların nəzərinə çatdırılıb.








## "İstehlakçıların hüquqlarının qorunması sahəsində inzibati orqanların səlahiyyət bölgüsü" mövzusunda seminar

*20.12.2022*

İqtisadiyyat Nazirliyi yanında Antiinhisar və İstehlak Bazarına Nəzarət Dövlət Xidmətində "İstehlakçıların hüquqlarının qorunması sahəsində inzibati orqanların səlahiyyət bölgüsü" mövzusunda seminar keçirilib. Tədbirdə Rəqəmsal İnkişaf və Nəqliyyat Nazirliyinin, Mərkəzi Bankın, Qida Təhlükəsizliyi Agentliyinin və Antiinhisar və İstehlak Bazarına Nəzarət Dövlət Xidmətinin nümayəndələri iştirak edib. Seminar iştirakçıları istehlakçı hüquqlarının qorunması sahəsində inzibati orqanların səlahiyyətlərinin dəqiq müəyyən edilməsi istiqamətində təkliflərin hazırlanması barədə müzakirələr aparıblar.

## Çörək istehsalçıları ilə görüş

*21.12.2022*

Çörək məhsullarının satışının qablaşdırılmasında göstərilən çəkiyə uyğun aparılmasının təmin edilməsi məqsədilə 6 çörək istehsalçısı ilə görüş keçirilib, görüşdə qanunvericiliyin tələbləri barədə müzakirələr aparılıb və çörəklərin qablaşdırmasının üzərində çəkisinin göstərilməsinin və satılan çörəklərin faktiki çəkisinin qablaşdırmada göstərilən çəkiyə uyğun olmasının vacibliyi vurğulanıb.

## İri market şəbəkələrinin rəhbər şəxsləri ilə görüş

*26.12.2022*

İqtisadiyyat Nazirliyi yanında Antiinhisar və İstehlak Bazarına Nəzarət Dövlət Xidmətində 10-dan çox iri market şəbəkəsinin rəhbər şəxsləri ilə görüş keçirilib. Görüşdə istehlakçıların qiymətdə, hesabda, çəkidə aldadılması və digər halların qarşısının alınması ilə bağlı fikir mübadiləsi aparılıb. Tədbirdə marketlərdə bütün malların üzərində qiymətlərin göstərilməsinin, malların bu qiymətə və çəkiyə uyğun satılması barədə qanunvericiliyin tələbləri və onlara əməl edilməsinin vacibliyi vurğulanıb.

# DÖVLƏT, ÖZƏL VƏ İCTİMAİ TƏŞKİLATLARLA ƏMƏKDAŞLIQ




## BAKI ALİ NEFT MƏKTƏBİ İLƏ ƏMƏKDAŞLIQ MEMORANDUMU

*15.04.2022*

İqtisadiyyat Nazirliyi yanında Antiinhisar və İstehlak Bazarına Nəzarət Dövlət Xidməti ilə Bakı Ali Neft Məktəbi arasında Əməkdaşlıq Memorandumu imzalanıb. Sənədi Dövlət Xidmətinin rəisi Məmməd Abbasbəyli ilə Ali Məktəbinin rektoru Elmar Qasımov imzalayıblar. Memorandumda birgə layihə və tədqiqatların aparılması, konfrans, təlim və seminarların təşkil edilməsi, eyni zamanda tədris müəssisəsini xüsusi fərqlənmə ilə bitirmiş məzunların işlə təmin edilməsi ilə əlaqədar tərəflər arasında əlaqələrin qurulması məsələləri öz əksini tapıb.








## KÜTLƏVİ İNFORMASİYA VASİTƏLƏRİNİN NÜMAYƏNDƏLƏRİ ÜÇÜN TƏLİM

*28.04.2022*

İqtisadiyyat Nazirliyinin kommunikasiya strategiyasına uyğun olaraq, iqtisadi sahədə fəaliyyət göstərən media nümayəndələrinin peşəkarlıq səviyyəsinin artırılması məqsədilə Medianın İnkişafı Agentliyi ilə birgə KİV nümayəndələri üçün “Bazar iqtisadiyyatı və rəqabət mühiti” və “İstehlakçının hüquq və vəzifələri” mövzularında təlim keçirilib. Qeyd olunub ki, təlimin keçirilməsində məqsəd bazar iqtisadiyyatının prinsipləri, tənzimlənməsi metodları, antiinhisar tənzimlənməsi və siyasəti, istehlakçıların hüquq və vəzifələri barədə jurnalistlərin bilik və təcrübələrini artırmaq, onların bu sahədə ixtisaslaşmasına dəstək göstərməkdir.

## AZƏRBAYCAN DÖVLƏT NEFT VƏ SƏNAYE UNİVERSİTETİ ARASINDA ƏMƏKDAŞLIQ MEMORANDUMU

*12.05.2022*

İqtisadiyyat Nazirliyi yanında Antiinhisar və İstehlak Bazarına Nəzarət Dövlət Xidməti ilə Azərbaycan Dövlət Neft və Sənaye Universiteti arasında Əməkdaşlıq Memorandumu imzalanıb. Sənədi Dövlət Xidmətinin rəisi Məmməd Abbasbəyli və Universitetin rektoru Mustafa Babanlı imzalayıblar. Memorandumda ali məktəbin tələbələri üçün istehsalat təcrübəsinin və yay təcrübə proqramlarının təşkili, təhsil sahəsində müasir texnologiyaların və elmi inkişafın nəticələrinin istifadəsində əməkdaşlıq nəzərdə tutulur. Sənəddə həmçinin birgə layihə və tədqiqatların aparılması, konfrans, təlim və seminarların təşkili, tədris müəssisəsini xüsusi fərqlənmə ilə bitirmiş məzunların işlə təmin olunması ilə əlaqədar tərəflər arasında əlaqələrin qurulması, Universitetdə “karyera günləri”nin keçirilməsi məsələləri də əks olunub.






## İQTİSADİYYAT NAZİRLİYİ YANINDA İCTİMAİ ŞURANIN ÜZVLƏRİ İLƏ GÖRÜŞ

*27.05.2022*

İqtisadiyyat Nazirliyi yanında Antiinhisar və İstehlak Bazarına Nəzarət Dövlət Xidmətində Nazirlik yanında İctimai Şuranın üzvləri ilə görüş keçirilib. Görüşdə antiinhisar qanunvericiliyinin tətbiqi, istehlakçı hüquqlarının müdafiəsi, dövlət satınalmaları və digər sahələrdə həyata keçirilən tədbirlər barədə məlumat verilib, İctimai Şuranın səmərəli fəaliyyətinin qərarların qəbulu zamanı ictimai rəy və vətəndaş maraqlarının təmin olunmasında, şəffaflığın daha da artırılmasında əhəmiyyəti vurğulanıb.

## AZƏRBAYCANDA AMERİKA TİCARƏT PALATASININ ÜZVLƏRİ İLƏ GÖRÜŞ

*03.06.2022*

İqtisadiyyat Nazirliyi yanında Antiinhisar və İstehlak Bazarına Nəzarət Dövlət Xidmətinin nümayəndələri və Azərbaycanda Amerika Ticarət Palatasının (AmCham) üzvləri arasında dəyirmi masa formatında görüş keçirilib.Tədbirdə təbii inhisarların fəaliyyətinə nəzarət mexanizmlərinin təkmilləşdirilməsi, dövlət satınalmalarının rəqabətqabiliyyətliliyin artırılmasında rolu, istehlak bazarına nəzarət və istehlakçı hüquqlarının qorunması sahələrinin təkmilləşdirilməsi istiqamətində görülən işlər barədə məlumat verilib.

## RUSİYA FEDERASİYASININ FEDERAL ANTİİNHISAR XİDMƏTİ İLƏ RƏQABƏT SAHƏSİNDƏ ƏMƏKDAŞLIQ HAQQINDA ANLAŞMA MEMORANDUMU

*12.09.2022*



İqtisadiyyat Nazirliyi yanında Antiinhisar və İstehlak Bazarına Nəzarət Dövlət Xidmətinin nümayəndə heyətinin Belarusa səfəri çərçivəsində İqtisadiyyat Nazirliyi ilə Rusiya Federasiyasının Federal Antiinhisar Xidməti arasında rəqabət sahəsində əməkdaşlıq haqqında Anlaşma Memorandumu imzalanıb. Sənədi Dövlət Xidmətinin rəisi Məmməd Abbasbəyli və Rusiya Federasiyasının Federal Antiinhisar Xidmətinin rəisi Maksim Şaskolski imzalayıblar. Memorandumda rəqabət sahəsində əməkdaşlığın inkişaf etdirilməsi, təcrübə mübadiləsi və digər məsələlər öz əksini tapıb. Dövlət Xidmətinin nümayəndələri həmçinin Antiinhisar Siyasəti üzrə Dövlətlərarası Şuranın 53-cü iclasında da iştirak ediblər. Tədbirdə Dövlət Xidmətinin nümayəndələri “Haqsız rəqabət sahəsində hüquqi-praktiki təcrübələr” mövzusunda təqdimatla çıxış ediblər.

## AZƏRBAYCAN DÖVLƏT İQTİSAD UNİVERSİTETİNİN MÜƏLLİM-TƏLƏBƏ HEYƏTİ İLƏ GÖRÜŞ

*29.09.2022*

İqtisadiyyat Nazirliyi yanında Antiinhisar və İstehlak Bazarına Nəzarət Dövlət Xidmətinin nümayəndələri Azərbaycan Dövlət İqtisad Universitetinin (UNEC) müəllim-tələbə heyəti ilə görüşüb. Tədbirdə iki qurum arasında əməkdaşlıq perspektivləri, Dövlət Xidmətində UNEC tələbələri üçün istehsalat təcrübəsi və yay təcrübə proqramlarının təşkil olunması, müvafiq sahədə kadr potensialının inkişafına xidmət edən layihələrin icrası və birgə tədbirlərin təşkili imkanları ilə bağlı fikir mübadiləsi aparılıb.

Görüş çərçivəsində Antiinhisar və İstehlak Bazarına Nəzarət Dövlət Xidməti və Azərbaycan Dövlət İqtisad Universiteti arasında Əməkdaşlıq Memorandumu imzalanıb. Sənəddə UNEC tələbələrinin bilik və bacarıqlarının davamlı inkişafının təmin edilməsi və karyera planlaşdırması, qarşılıqlı maraq kəsb edən sahələr, xüsusilə haqsız rəqabət, dövlət satınalmaları, keyfiyyətin idarəedilməsi, istehlakçıların hüquqlarının müdafiəsi və digər müvafiq sahələrdə əməkdaşlıq məsələləri nəzərdə tutulur.



## AZƏRBAYCAN RESPUBLİKASININ VƏKİLLƏR KOLLEGİYASININ ÜZVLƏRİ İLƏ GÖRÜŞ

*12.10.2022*

İqtisadiyyat Nazirliyi yanında Antiinhisar və İstehlak Bazarına Nəzarət Dövlət Xidmətində Vəkillər Kollegiyasının üzvləri ilə görüş keçirilib. Görüşdə Dövlət Xidməti ilə Vəkillər Kollegiyası arasında uzunmüddətli və effektiv əlaqələrin qurulması məqsədilə əməkdaşlıq haqqında Memorandum imzalanıb. Memorandumda birgə seminar, konfrans və təlimlərin təşkili, istehlakçı hüquqlarına dair maarifləndirici vəsaitlərin hazırlanması, korporativ sosial məsuliyyət layihələri çərçivəsində əməkdaşlıq məsələləri öz əksini tapıb. Tədbirdə Vəkillər Kollegiyasının fəaliyyətinə həsr olunan təqdimat keçirilib. Sonra Dövlət Xidmətinin əməkdaşları tərəfindən "Bazar iqtisadiyyatı və rəqabət mühiti" və "İstehlakçı hüquqlarının müdafiəsi mexanizmləri" mövzularında seminar keçirilib.

## MÜSTƏQİL DÖVLƏTLƏR BİRLİYİNƏ ÜZV ÖLKƏLƏRİN İSTEHLAKÇI HÜQUQLARININ QORUNMASI ÜZRƏ MƏŞVƏRƏTÇİ ŞURASININ 19-CU İCLASINDA İŞTİRAK

*12.12.2022*

İqtisadiyyat Nazirliyi yanında Antiinhisar və İstehlak Bazarına Nəzarət Dövlət Xidmətinin rəisi Məmməd Abbasbəyli Müstəqil Dövlətlər Birliyinə (MDB) üzv ölkələrin İstehlakçı hüquqlarının qorunması üzrə Məşvərətçi Şurasının 19-cu iclasında iştirak edib. İclasda MDB-yə üzv dövlətlərdə elektron ticarət sahəsində istehlakçı hüquqlarının müdafiəsi və internet vasitəsilə malların satışına dair məsələlər müzakirə edilib.

## AZƏRBAYCAN-TÜRKİYƏ İŞ ADAMLARI BİRLİYİNİN TƏŞKİL ETDİYİ İŞGÜZAR NAHARDA İŞTİRAK

*15.12.2022*

İqtisadiyyat Nazirliyi yanında Antiinhisar və İstehlak Bazarına Nəzarət Dövlət Xidmətinin nümayəndələri Azərbaycan-Türkiyə İş Adamları Birliyinin (ATİB) təşkil etdiyi tədbirdə iştirak ediblər. İşgüzar nahar formatında təşkil edilən tədbirdə Dövlət Xidməti və onun tabeliyində olan qurumların fəaliyyət istiqamətləri, əldə olunan nəticələr, rəqabət siyasəti, dövlət satınalmaları, keyfiyyət təminatı və istehlakçı məmnuniyyəti sahələrində yeniliklər barədə məlumat verilib. Tədbirdə Türkiyə və Azərbaycanın 100-dən artıq biznes təmsilçisi iştirak edib.








# 03 BEYNƏLXALQ TƏRƏFDAŞLIQ

## TÜRKİYƏ İLƏ ƏMƏKDAŞLIĞA DAİR

2022-ci il 9 may tarixində Antiinhisar və İstehlak Bazarına Nəzarət Dövlət Xidmətinin nümayəndə heyətinin Türkiyə səfəri çərçivəsində Ankara şəhərində Türkiyə Rəqabət Qurumunun rəhbəri Birol Küle ilə görüş təşkil edilib, ticarətin müdafiəsi sahəsinin lazımi səviyyədə təchiz olunmasını və tam fəaliyyət göstərməsini təmin etmək məqsədilə "Orta Anadolu İxracatçılar Birliyi", "Türkiyə Polad İstehsalçıları Birliyi", "Ankara Sənaye Palatası", "Havalandırma İxracatçıları Birliyi" və başqa Türkiyə dövlət nümayəndələri və assosiasiya rəhbərləri ilə görüşlərin keçirilməsi, Dövlət Xidmətinin nümayəndələrinin aidiyyəti sahələrdə seminar və konfranslarda iştirakı təmin edilib.

2022-ci ilin 5-6 sentyabr tarixlərində İqtisadiyyat Nazirliyində, Dövlət Xidmətində və Dövlət Xidmətinin tabeliyində fəaliyyət göstərən Azərbaycan Standartlaşdırma İnstitutunda (AZSTAND) Türk Standartları İnstitutunun (TSE) rəhbəri ilə görüşlər keçirilib, görüşlərdə AZSTAND-ın potensialının təkmilləşdirilməsi, beynəlxalq akkreditasiya standartlarına uyğunlaşdırılma, akkreditasiya sahələrinin genişləndirilməsi üzrə əməkdaşlıq, həmçinin Azərbaycanın İslam Ölkələrinin Standartlar və Metrologiya İnstitutunda (SMIIC) üzvlüyünün aktivləşdirilməsi və digər məsələlər müzakirə edilib. Əlavə olaraq Dövlət Xidməti ilə Türkiyə Respublikasının Halal Akkreditasiya Agentliyi arasında halal akkreditasiya sahəsində Anlaşma Memorandumu çərçivəsində Türkiyə və Azərbaycan arasında halal keyfiyyət infrastrukturu sahəsində əməkdaşlığın genişləndirilməsi məqsədilə İşçi Qrupu yaradılıb və qeyd olunan sahə üzrə birgə işlər həyata keçirilir.









Azərbaycanla Türkiyə arasında İqtisadi Əməkdaşlıq üzrə Birgə Hökumətlərarası Komissiyanın 8-ci iclasının protokoluna uyğun olaraq Türk Standartları İnstitutu ilə AZSTAND arasında ikitərəfli əməkdaşlığı inkişaf etdirmək məqsədilə 2022-2023-cü illər üzrə Fəaliyyət Planı təsdiq edilib.

2022-ci ilin sentyabr ayında Türkiyədə işgüzar səfər çərçivəsində Dövlət Xidmətinin və tabeliyindəki Azərbaycan Akkreditasiya Mərkəzinin (AzAK) nümayəndə heyəti və Türkiyə Akkreditasiya Agentliyi (TürkAK) arasında iki ölkənin akkreditasiya qurumlarının əməkdaşlığının inkişaf istiqamətləri müzakirə edilib.

2022-ci ilin 30 sentyabr tarixində Bakı şəhərində Dövlət Xidmətinin tabeliyində fəaliyyət göstərən Azərbaycan Metrologiya İnstitutu ilə Türkiyə Elmi və Texnoloji Tədqiqat Təşkilatının Milli Metrologiya İnstitutu arasında metrologiya sahəsində əməkdaşlıq haqqında Anlaşma Memorandumu imzalanıb.



## RUSİYA İLƏ ƏMƏKDAŞLIĞA DAİR



**07.09.22**

2022-ci ilin 7 sentyabr tarixində Belarus Respublikasının Minsk şəhərində İqtisadiyyat Nazirliyi ilə Rusiya Federasiyasının Federal Antiinhisar Xidməti arasında rəqabət sahəsində əməkdaşlıq haqqında Anlaşma Memorandumu imzalanıb.

## BELARUS RESPUBLİKASI İLƏ ƏMƏKDAŞLIQ

Belarus Respublikasının Minsk şəhərində keçirilən Belarus Respublikasının antiinhisar orqanının yaranmasının 30 illik yubileyində və Antiinhisar Siyasəti üzrə Dövlətlərarası Şuranın 53-cü iclasında Dövlət Xidmətinin nümayəndə heyəti iştirak edib.

Belarus Respublikasının Antiinhisar Tənzimlənmə və Ticarət naziri Aleksey Boqdanov ilə ikitərəfli görüş keçirilib və görüş zamanı iki qurum arasında yaxın gələcəkdə rəqabət sahəsində əməkdaşlıq haqqında Anlaşma Memorandumunun imzalanmasına razılıq əldə edilib.

Beynəlxalq konfransda Dövlət Xidməti tərəfindən təqdimat zamanı fəaliyyət istiqamətləri barədə məlumat verilib və ölkəmizdə müvafiq sahələrdə aparılan islahatlar diqqətə çatdırılıb.













## QIRĞIZ RESPUBLİKASI İLƏ ƏMƏKDAŞLIĞA DAİR

Antiinhisar siyasəti sahəsində əməkdaşlığın genişləndirilməsi məqsədilə 20 aprel 2022-ci il tarixində Dövlət Xidməti ilə Qırğız Respublikasının İqtisadiyyat və Kommersiya Nazirliyi yanında Antiinhisar Tənzimləməsi Xidməti arasında əməkdaşlıq haqqında Memorandum imzalanıb, 3 iyun tarixində onlayn formatda saziş çərçivəsində qarşıda duran məsələlər müzakirə edilib.

2022-ci ilin 7 sentyabr tarixində Belarus Respublikasının Minsk şəhərində beynəlxalq konfransda iştirak edən Qırğız Respublikasının Antiinhisar Tənzimlənməsi Dövlət Agentliyinin rəhbəri ilə ikitərəfli görüş keçirilib. Görüşdə cari ildə iki ölkənin antiinhisar orqanları arasında imzalanmış Əməkdaşlıq haqqında Memorandumun həyata keçirilməsinə dair Tədbirlər Planı müzakirə edilib, qarşılıqlı təcrübə mübadiləsinin təmin olunması və fəaliyyət istiqamətləri üzrə təlimlərin keçirilməsi haqqında razılıq əldə olunub. Rəhbərlərin görüşündən sonra 20 sentyabr tarixində onlayn formatda Qırğızıstanın sözügedən qurumunun əməkdaşları ilə Tədbirlər Planında qeyd olunan məsələlər müzakirə edilmiş və icrasına dair razılıq əldə edilib.

2022-ci ilin 2 dekabr tarixində tərəflər arasında onlayn formatda keçirilən görüşdə Dövlət Xidmətinin Antiinhisar nəzarəti, Haqsız rəqabət və reklam qanunvericiliyinə nəzarət, Təbii inhisarlara dövlət nəzarəti və İstehlakçı hüquqlarının müdafiəsi şöbəsinin əməkdaşlarının iştirakları təmin edilib. Danışıqlar zamanı tədbirlər planının bəndlərinə uyğun olaraq məsələlər müzakirə olunub və aidiyyəti sahələr üzrə fikir mübadiləsi həyata keçirilib.

## GÜRCÜSTAN İLƏ RƏQABƏT SAHƏSİNDƏ ƏMƏKDAŞLIĞA DAİR

2022-ci ilin 16-17 noyabr tarixlərində Dövlət Xidmətinin nümayəndələrinin Gürcüstanın Tbilisi şəhərində keçirilən "Rəqabət və İstehlakçı Hüquqlarının Müdafiəsi" beynəlxalq konfransında iştirakı təmin edilib. Tədbir çərçivəsində Dövlət Xidməti və Gürcüstanın Milli Rəqabət Agentliyi arasında rəqabət sahəsində əməkdaşlıq haqqında Anlaşma Memorandumu imzalanıb.






## QAZAXISTAN İLƏ ƏMƏKDAŞLIQ

2022-ci ilin 21 sentyabr tarixində Əbu-Dabi şəhərində beynəlxalq konfrans çərçivəsində Azərbaycan Standartlaşdırma İnstitutu ilə Qazaxıstan Standartlaşdırma və Metrologiya İnstitutu arasında halal keyfiyyət infrastrukturu sahəsində əməkdaşlıq haqqında Anlaşma Memorandumu imzalanıb.

2022-ci ilin 6-7 oktyabr tarixlərində Qazaxıstan Respublikasının Almatı şəhərində Qazaxıstan Respublikasının Rəqabətin Qorunması və İnkişafı Agentliyinin və Rəqabət Siyasətinin İnkişafı və Qorunması Mərkəzinin birgə təşkil etdiyi “VIII Avrasiya Antiinhisar” forumunda Dövlət Xidmətinin nümayəndələrinin iştirakı təmin edilib. Dövlət Xidmətinin nümayəndələri tədbirdə “Azərbaycanda institusional islahatlar və transformasiya layihələri”, “Haqsız rəqabət sahəsində hüquqi-praktiki təcrübə” mövzularında təqdimatla çıxış edib.

## ÇİN XALQ RESPUBLİKASININ STANDARTLAŞDIRMA ÜZRƏ ADMİNİSTRASİYASI İLƏ ƏMƏKDAŞLIĞIN QURULMASI

2022-ci ilin 21 sentyabr tarixində Əbu-Dabi şəhərində beynəlxalq konfrans çərçivəsində Dövlət Xidmətinin tabeliyində fəaliyyət göstərən Azərbaycan Standartlaşdırma İnstitutu ilə Çin Xalq Respublikasının Standartlaşdırma üzrə Administrasiyası arasında standartlaşdırma sahəsində əməkdaşlıq haqqında Anlaşma Memorandumu imzalanıb.

# BEYNƏLXALQ TƏRƏFDAŞLIQ

2022-ci il ərzində Dövlət Xidmətində Asiya İnkişaf Bankının (AİB) “Azərbaycanda satınalmalarla bağlı islahatlar – məsləhətləşmə missiyası”nın nümayəndələri ilə mütəmadi görüşlər keçirilib.

Almaniyanın Rəqabət Qurumu (Bundeskartellamt) tərəfindən keçirilən, Beynəlxalq Rəqabət Şəbəkəsinin (International Competition Network) 2022-ci il üzrə illik Konfransı çərçivəsində həyata keçiriləcək rəqabət siyasəti, icra məsələlərinin həll edilməsi və Beynəlxalq Rəqabət Şəbəkəsinin gələcək istiqamətləri mövzularında müzakirə və dinləmələrdə, həmçinin Beynəlxalq Rəqabət Şəbəkəsinin nəzdində keçirilən “21-ci Beynəlxalq Rəqabət Konfransında” (21st International Conference on Competition) Dövlət Xidmətinin əməkdaşlarının iştirakları təmin edilib.




"Ümumdünya Ticarət Təşkilatına üzvlük danışıqları və ticarətlə əlaqəli digər tədbirlərlə bağlı Azərbaycan hökumətinin potensialının gücləndirilməsi" adlı layihə çərçivəsində ticarətdə müdafiə vasitələri sahəsində xarici ölkələrin təcrübəsinin öyrənilməsi məqsədilə Dövlət Xidmətinin əməkdaşlarının Türkiyədə keçirilən seminarlarda iştirakları təmin edilib.



# BEYNƏLXALQ TƏRƏFDAŞLIQ




Nottinqem Hüquq Məktəbinin Dövlət Satınalmaları Araşdırma Qrupu tərəfindən “Dövlət Satınalmaları: Qlobal İnqilab XI” mövzusunda Nottinqem şəhərində keçirilən konfransda Dövlət Xidmətinin nümayəndələrinin iştirakı təşkil edilib, konfransda Dövlət Xidmətinin nümayəndələri ölkəmizdə dövlət satınalmaları sahəsində aparılan islahatlarla bağlı çıxış ediblər.

Özbəkistanın paytaxtı Daşkənd şəhərində Müstəqil Dövlətlər Birliyinin Standartlaşdırma, metrologiya və sertifikatlaşdırma üzrə Dövlətlərarası Şurasının 30-cu yubiley iclasında Dövlət Xidmətinin, eləcə də Xidmətin tabeliyində olan Azərbaycan Standartlaşdırma İnstitutu, Azərbaycan Metrologiya İnstitutu və Azərbaycan Akkreditasiya Mərkəzinin nümayəndələrinin iştirakı təşkil edilib.

İslam Ölkələrinin Standartlar və Metrologiya İnstitutunda (SMIIC) Azərbaycan Respublikasının üzvlüyünün aktivləşdirilməsi məqsədilə atılan addımların davamı olaraq “İslam Ölkələrinin Standartlar və Metrologiya İnstitutunun (SMIIC) Əsasnaməsinin təsdiq edilməsi haqqında” Azərbaycan Respublikasının 11 oktyabr 2022-ci il tarixli 601-VIQ nömrəli Qanunu qəbul edilib.

21-22 noyabr 2022-ci il tarixlərində üzv ölkələrin iştirakı ilə Türkiyənin İstanbul şəhərində SMIIC-in Direktorlar Şurasının 24-cü və Baş Assambleyasının 17-ci iclası keçirilib. Sözügedən iclasda Azərbaycan Standartlaşdırma İnstitutu iştirak edib.



# İNSAN KAPİTALININ İNKİŞAFI

## DÖVLƏT XİTDMƏTİNDƏ TƏYİNAT VƏ XİTAMLAR BARƏDƏ:

| Qurum | Təyinat | Xitam |
| --- | --- | --- |
| *Dövlət Xidmətinin Aparatı və Regional bölmələri* | 16 | 3 |
| *“Azərbaycan Akkreditasiya Mərkəzi” PHŞ* | 12 | 5 |
| *“Azərbaycan Metrologiya İnstitutu” PHŞ* | 42 | 21 |
| *“Azərbaycan Standartlaşdırma İnstitutu” PHŞ* | 43 | 26 |
| *“İstehlak Mallarının Ekspertizası Mərkəzi” MMC* | 21 | 14 |

## DÖVLƏT XİDMƏTİ TƏRƏFİNDƏN DÖVLƏT İMTAHAN MƏRKƏZİNDƏ MÜSAHİBƏYƏ ÇIXARILAN YERLƏR BARƏDƏ:

| Müsahibənin növü | Vakansiya sayı | Müraciət edənlərin sayı | Vəzifəyə uyğun bilinənlərin sayı | Təyinatı verilənlərin sayı |
| --- | --- | --- | --- | --- |
| ***Daxili müsahibə*** | **5** | 6 | **4** | 4 |
| ***Ümumi müsahibə*** | **14** | 48 | **7** | 5 |
| ***Müsabiqənin müsahibəsi*** | **37** | 1007 | **139** | 3 |

**2023-cü il ərzində Dövlət Xidmətinə dövlət qulluğu müsahibələrindən keçən namizədlərin təyinatları davam edəcək.**

# İNSAN KAPİTALININ İNKİŞAFI

## DÖVLƏT XİDMƏTİNDƏ KEÇİRİLƏN TƏLİMLƏR BARƏDƏ:

- Dövlət Xidmətinin əməkdaşlarının tədris prosesinin təkmilləşdirilməsi məqsədilə daxili Təlim-tədris proseduru hazırlanıb.
- 22 təlim (onlayn və əyani formada) təşkil edilmiş və 241 dinləyici iştirak edib.
- Daxili təlimçilər seçilmişdir. 7 daxili təlimçi aktiv şəkildə təlimlər keçib.
- 2023-cü il ərzində əməkdaşların təlim ehtiyaclarını təmin etmək üçün 200 əməkdaşın yumşaq və sərt bacarıqlar üzrə təlim ehtiyacları müəyyən edilib.



## DÖVLƏT XİDMƏTİNDƏ KEÇİRİLƏN MOTİVASİYA TƏDBİRLƏRİ BARƏDƏ:

Dövlət Xidmətində çalışan əməkdaşların iş mühitində motivasiyalarını artırmaq, onlar arasında interaktivlik, qarşılıqlı fikir mübadiləsi, sosiallaşma, kommunikasiya, komanda ruhu yaratmaq məqsədilə bir sıra layihələr və tədbirlər həyata keçirilib və əməkdaşların iştirakları təmin edilib.




- *4 motivasiya tədbiri keçirilmiş və bu tədbirlərdə 269 əməkdaş iştirak edib.*
- *Antiinhisar qurumunun yaranmasının 30-cu ildönümünə həsr olunan "Məqalə müsabiqəsi" təşkil edilib, Xidmətin 9 əməkdaşı 11 məqalə ilə yarışmaya qatılıb və 3 məqalə qalib seçilib.*
- *Dövlət Xidmətinin Aparatında rəhbərlərin fəaliyyətlərinin məhsuldarlığını ölçmək məqsədilə qiymətləndirilmə keçirilib. Bu zaman 360 dərəcə qiymətləndirmə sistemi tətbiq edilib. 20 rəhbər 196 əməkdaş, özləri və Xidmət rəhbəri tərəfindən qiymətləndirilib və 5 nəfər "İlin rəhbəri" seçilib.*
- *"Ayın işçisi" layihəsinin tətbiqinə başlanılıb və 6 nəfər "Ayın işçisi" seçilib.*

# RƏQƏMSALLAŞMA

Daxili proseslərin rəqəmsallaşması (proqramlarım, təqvim, yardım masası, bildirişlər, elektron kitabxana və s.) proseduru yaradılıb bütün modullara daxilolmanın vahid şəxsi kabinetdən həyata keçirilməsi məqsədilə Mərkəzləşdirilmiş Elektron İnformasiya Sisteminin (MEİS) qurulması üzrə texniki tapşırıq sənədi hazırlanaraq təsdiqlənib. İcraçı şirkət tərəfindən sistemin hazırlanması ilə bağlı işlər yekunlaşıb.




MEİS Dövlət Xidməti və tabelikdə olan qurumlarda istifadəyə verilib və sistemdən istifadəyə dair təlimlər təşkil edilib.

MEİS çərçivəsində Sənəd dövriyyəsi prosesinin avtomatlaşdırılması, eləcə də kağız daşıyıcıdan istifadənin ləğv edilməsi məqsədilə Elektron Sənəd Dövriyyəsi Modulu, iqtisadi maraqların müdafiəsi üçün yerli istehsal sahəsinə zərər vuran və ya zərər vurma təhlükəsi yaradan artmış idxala qarşı həyata keçirilən antidempinq tədbirlərinin təşkili məqsədilə Antidempinq Modulu, gələn qonaqların öncədən qeydiyyatı, nəzarət mexanizminin tətbiqi, eləcə də ziyarətlər üzrə müxtəlif tipli hesabatların əldə edilməsi məqsədilə Nəzarət Buraxılış Modulu, məhsulların anbara yerləşdirilməsi, əsas vəsait kimi işçilərə təhkim edilməsi, həmçinin mövcud məhsulların vergi və mühasibat uçotu əsasında qiymətsizləşdirilməsi, utilizasiyasının həyata keçirilməsi və müxtəlif tipli hesabatların əldə edilməsi məqsədilə Əsas Vəsaitlər Modulu və Anbar İdarəetmə Modulu istifadəyə verilib.

**Antiinhisar və İstehlak Bazarına Nəzarət Dövlət Xidməti**

Bakı şəhəri, Səbail rayonu, Üzeyir Hacıbəyov küçəsi, 84
Hökumət Evi, 7-ci qapı

Tel: (+994 12) 599 76 00 (+994 12) 599 76 82/83

Faks: (+994 12) 497 24 08

Çağrı mərkəzi: 195-1

E-mail: office@competition.gov.az

www.competition.gov.az